Günəş Şərqdən doğur!

❒ № 16 (5297), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 28 yanvar 2021-ci il (cümə axşamı)




## Ölüm halları 5 nəfərə düşdü

601 nəfər koronavirusdan sağalıb, 226 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 226 yeni yoluxma faktı qeydə alınıb, 601 nəfər müalicə olunaraq sağalıb. (Səh.9)

## Vəziyyətə heç kim zəmanət vermir

Ola bilər ki, dərslər yenidən dayandırılsın



Növbəti həftə Bakı, Abşeron və digər iri şəhərlərdə məktəbəhazırlıq, icma əsaslı məktəbəqədər qruplar və ibtidai siniflər üzə təhsil bərpa edilir. (Səh.9)

# Hazırlıq aparılır




## Üçtərəfli işçi qrupunun iclası yaxın vaxtlarda keçirilə bilər

(səh.2)

## Bu çiçək, o çiçək deyil

Bakıda 15 manata satılan xarıbülbül Şuşadan gətirilməyib

(səh.9)



## ✓ "Azərbaycan və Türkiyənin qarşısında yeni vəzifələr durur"

Hikmət Hacıyev: "Bu əməkdaşlıq heç kimə qarşı deyil. Bizim üçtərəfli formada apardığımız əməkdaşlığımız göstərir ki, bu əməkdaşlıqdan hər kəs qazana bilər" (səh.3)

## ✓ Səməd Seyidov AŞPA prezidenti Hendrik Daems ilə görüşüb

O, Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar haqqında ətraflı məlumat verib (səh.2)

## ✓ "Burda qeyri-adi hal yoxdur"

Vahid Əhmədov: "Naxçıvandan Mehriyə kommunikasiya xətti açılandan sonra Ermənistan da həmin istiqamətlərdən keçə bilər" (səh.5)

## ✓ "Ölümdən qorxmuram"

Ağır xəstəlik keçirən Rəşid Mahmudov ayağa qalxıb, evində müalicə alır (səh.12)



## "Azərbaycan dördtərəfli görüş tələb etməlidir"

Türk professor: "10 noyabr razılaşmasındakı qeyri-müəyyənliklər aradan qaldırılmalıdır" (səh.7)

## "Çox çətin relyefdə hücuma keçəcəkdik"

Aqşin Kərimov: "Həmin ərəfədə müharibənin bitdiyi xəbərini aldıq, hücum əmri geri götürüldü" (səh.8)



# "Hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu"

## Prezident İlham Əliyev: "Biz bu şəhəri qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq"



*"Yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcək". Bu sözləri Prezident İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, 44 günlük Vətən müharibəsi bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi:*

"Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə bir dəfə Şuşa haqqında demişdim. Müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!".

**"Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəyik"**

**Prezident vurğulayıb ki, müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi:** "Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi".

**"Düşmən Şuşada daşı daş üstə qoymayıb, bir bina tikməyib"**

**Dövlət başçısı bildirib ki, düşmən Şuşada daşı daş üstə qoymayıb, bir bina tikməyib:** "Özləri üçün bir neçə villa tikdiriblər. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa "erməni şəhəridir", onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir. Bununla paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz".

**"Bizə saxta tarix lazım deyil"**

**Ölkə rəhbəri bəyan edib ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı alimlər, mütəxəssislər dolğun məlumat verməlidir:** "Tariximizi malalamasınlar. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi göstərilirdi. Xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı komissarı - o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi. Ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir".

**"Azərbaycan hərbçiləri Şuşanı qoruyurlar"**

**Prezident bildirib ki, Şuşada komendantlıq yaradılıb, indi isə mülki idarəetmə institutu yaradılır:** "Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan heç bir tikiliyə yol verməmək lazımdır. Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış oldunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edib. Şuşanın bərpası bunun əsasında aparılacaq. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yeni Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaq".

**"Vaqif poeziya günləri onun məqbərəsinin önündə keçiriləcək"**

**Dövlət başçısı bildirib ki, Türk Şurasının nümayəndə heyəti ilə görüş əsnasında Türk Şurasının Baş katibi belə bir təklif irəli sürdü ki, Şuşa türk dünyasının mədəniyyət paytaxtı seçilsin:** "Baxın, bu tarixi şəhərimizə türk dünyasında və bütövlükdə müsəlman dünyasında nə qədər böyük maraq var, nə qədər böyük məhəbbət var. Bu, təsadüfi deyil. Ona görə biz, əlbəttə ki, Şuşanın gələcək həyatı ilə bağlı öz addımlarımızı atacağıq. Artıq mən bildirmişəm ki, bu il iki tədbir keçirilməlidir. "Xarıbülbül" festivalı, Vaqif poeziya günləri bərpa edilməlidir. Vaqifin məqbərəsinin bərpası ilə bağlı işlərə start verilməlidir və çalışmalıyıq ki, məqbərə bu il bərpa edilsin. Vaqif poeziya günləri məqbərənin önündə keçiriləcək".

**"Ermənilər Şuşanı dünyaya "erməni şəhəri" kimi təqdim edə bilməyiblər"**

**Dövlət başçısı qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməyiblər:** "Baxmayaraq ki, 28 il ərzində buna çalışmışdılar, bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirmişdilər, Şuşa haqqında uydurmalar ortaya atmışdılar, Şuşanın adını dəyişdirmişdilər. Buna baxmayaraq, heç kim buna inanmırdı. Çünki Şuşaya gələn hər bir insanın fikri ondan ibarət idi və hər bir insan öz gözü ilə görürdü ki, Şuşanın memarlıq ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir. İndi qədim tarixi saxtalaşdırırlar, indi saxta kitablar yazdırırlar, simpoziumlar, tədbirlər keçirirlər. Amma bu, nisbətən yaxın tarixdir". Prezident qeyd edib ki, Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olub: "Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıb. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salıb. Təsadüfi deyil ki, bu şəhərə verilən birinci ad Pənahabad idi, öz adını verib. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq bu şəhərə Şüşə, yəni, Şuşa adı verilib".

**"Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq"**

**Prezident bildirib ki, ermənilərin bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub:** "Onlar və onların müxtəlif ölkələrdəki havadarları saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir. Baxın görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər? Guya, Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, deməli olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub. Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib. Biz Şuşanı qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq. Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq".

**İsmayıl**



## Milli Məclisdə "Təhsil kreditləri haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq

**Milli Məclisin yaz sessiyasında "Təhsil kreditləri haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq.**

Bu, Milli Məclisin yaz senssiyasının qanunvericilik işləri planına daxil edilib.

## Səməd Seyidov AŞPA prezidenti Hendrik Daems ilə görüşüb

### O, Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar haqqında ətraflı məlumat verib




**Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində qurumdakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AŞPA-nın yenidən seçilmiş prezidenti Hendrik Daems ilə görüşüb.**

Azərtac xəbər verir ki, görüşdə Azərbaycan-AŞPA münasibətlərinin gələcək perspektivlərinə dair, eləcə də Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinin 20 illiyi ilə bağlı fikir mübadiləsi aparılıb.

S.Seyidov AŞPA prezidentinə Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar haqqında da ətraflı məlumat verib.

## Hazırlıq aparılır

### Üçtərəfli işçi qrupunun iclası yaxın vaxtlarda keçirilə bilər

**Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli işçi qrupunun iclası yaxın vaxtlarda keçirilə bilər.**

Dağlıq Qarabağda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində Rusiya, Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinlərinin üçtərəfli işçi qrupunun iclası yaxın vaxtlarda keçirilə bilər.

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə dünən Rusiya Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.

Bildirilib ki, idarələrarası formatda Azərbaycan və Ermənistan tərəfi ilə üçtərəfli işçi qrupunun ilk iclasının yaxın vaxtlarda keçirilməsinə hazırlıq aparılır.

Qeyd olunub ki, Dağlıq Qarabağ nizamlanma prosesinin qərəzsiz və məsuliyyətli şəkildə həlli Rusiyanın Cənubi Qafqazda xarici siyasətinin prioritet istiqamətlərindən olub və qalmaqdadır.

*Xatırladaq ki, ötən gün RBK Azərbaycan, Rusiya və Ermənistan Baş nazirlərinin müavinlərinin görüşünün bu gün Moskvada keçiriləcəyi barədə məlumat yayıb.*

# “Azərbaycan və Türkiyənin qarşısında yeni vəzifələr durur”

**Hikmət Hacıyev: “Bu əməkdaşlıq heç kimə qarşı deyil. Bizim üçtərəfli formada apardığımız əməkdaşlığımız göstərir ki, bu əməkdaşlıqdan hər kəs qazana bilər”**



**“Prezident İlham Əliyevin təklif etdiyi ”3+3” formatı dövlətlər arasında daha sıx inteqrasiyanı ehtiva edir”. Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Türkiyənin Siyasət, İqtisadiyyat və Toplum Araşdırmaları Vəqfinin (SETA) birgə təşkilatçılığı ilə keçirilən ”Azərbaycan-Türkiyə münasibətlərinin gələcək 10 ili” adlı vebinarda Prezidentin köməkçisi Hikmət Hacıyev deyib. Administrasiya rəsmisi bildirib ki, beynəlxalq sülhə və təhlükəsizliyə cavabdeh olan qurumlar tamamilə qeyri-effektiv şəkildə fəaliyyət göstərməkdədir:**

“Buna baxmayaraq, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra regionda artıq yeni müstəvi və imkanlar açılıb. Azərbaycan və Türkiyənin qarşısında yeni vəzifələr durur. Bütöv regionun geniş mənada geosiyasəti dəyişdirilməli və əməkdaşlığa, işbirliyinə doğru inkişaf etdirilməlidir. Prezident İlham Əliyevin təklif etdiyi ”3+3” formatı dövlətlər arasında daha sıx inteqrasiyanı və əlaqələri özündə ehtiva edən formatdır. Ermənistan işğalçılıq siyasətinə, qardaş Türkiyəyə və Azərbaycana qarşı iddialarına son qoyarsa, bu prosesin tərkib hissəsi ola bilər. Bu platforma regionda davamlı sülhə nail olmağımıza şərait yaradacaq”.

**“Ərdoğanın “Azərbaycanın yanındayıq” ifadəsi regionda çox böyük geosiyasi dəyişiklikləri ehtiva edən açıqlama idi”**

**Hikmət Hacıyev deyib ki, Ərdoğanın “Azərbaycanın yanındayıq” ifadəsi regionda çox böyük geosiyasi dəyişiklikləri ehtiva edən açıqlama idi:** ”2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan sərhədində Ermənistan ”Tovuz hadisələri” adlanan təxribatı törədən zaman başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, qardaş Türkiyənin rəsmi şəxslərinin tərəddüd etmədən ”Azərbaycanın yanındayıq” ifadəsi regionda çox böyük geosiyasi dəyişiklikləri özündə ehtiva edən açıqlama idi. Azərbaycanın apardığı Vətən müharibəsində qardaş Türkiyənin mənəvi, diplomatik, psixoloji və siyasi dəstəyi çox vacib element id. Bunlar Azərbaycanın qələbəsini şərtləndirən elementlərdən idi. Nəticədə Azərbaycan xalqı məhkum olduğu işğaldan qurtuldu. Azərbaycan xalqı Qələbəyə nə qədər sevindisə, qardaş Türkiyə xalqı və insanları da o qədər sevinmiş oldu”.

**“Bizim diaspor sahəsində də Türkiyə ilə görülməli çox işlərimiz var”**

**H.Hacıyev vurğulayıb ki, diaspor sahəsində də Türkiyə ilə görülməli çox işlər var:** ”Artıq Azərbaycan-Türkiyə ortaq media platformasını ortaya qoymağa nail olunub. Həm Azərbaycan, həm Türkiyəyə qarşı qarayaxma kampaniyaları çox güclüdür. Buna qarşı səyləimizi birləşdirməyi vacib hesab edirik. Diaspor təşkilatlarımızın da səylərinin birləşdirilməsinə ehtiyac var. Azərbaycan-Türkiyə elm adamları, iş adamlarının da əlaqələrini inkişaf etdirməliyik”.

**“Ermənistan tranzit ölkəyə çevrilə bilər, bu isə uzunmüddətli sülhü gücləndirən amil olacaq”**

**Prezidentin köməkçisi bildirib ki, Azərbaycan və Türkiyə arasında əlaqələri TAP, TANAP, Bakı-Tblisi-Qars, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri çərçivəsində daha da inkişaf etdirmək potensialı var:** ”Azərbaycan-Türkiyə birliyi Gürcüstanın da inkişafına səbəb olub. Ermənistan da Azərbaycan və Türkiyə işbirliyindən yararlana bilər. Mehridən Naxçıvana kommunikasiya xəttinin açılması da yaxın günlərdə müzakirə olunacaq. Burada Ermənistan tranzit ölkəyə çevrilə bilər. Bu isə nəticədə bölgədə uzunmüddətli sülhü gücləndirən amil olacaq”.

**“Ermənistan da Azərbaycan-Türkiyə əməkdaşlığından faydalana bilər”**

**H.Hacıyev bəyan edib ki, hərbi-texniki sahədə əməkdaşlığın bilavasitə uğurlarını Zəfər savaşında gördük:** ”Diaspor, elm və digər sahələrdə də əməkdaşlığımızı inkişaf etdirməliyik, bunun üçün zəmin də var. Qarşıdan gələn dövrlərdə və proseslərdə əlaqələri daha da inkişaf etdirməliyik. Bu əməkdaşlıq regional sülh və təhlükəsizliyi gücləndirir. Bu əməkdaşlıq heç kimə qarşı deyil. Bizim üçtərəfli formada apardığımız əməkdaşlığımız göstərir ki, bu əməkdaşlıqdan hər kəs qazana bilər. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə- İran, Azərbaycan-Türkiyə-Pakistan. Deməli, Ermənistan da Azərbaycan və Türkiyə əməkdaşlığından faydalana bilər”.

**“Türkiyə Cənubi Qafqazda gedən proseslərdə aktiv iştirak etməlidir”**

**Hikmət Hacıyev vurğulayıb ki, Türkiyə Cənubi Qafqazda gedən proseslərdə, eləcə də hələ də kövrək olan sülhün qorunmasında aktiv iştirak etməlidir:** ”Regionda sülhün, barışın davamlılığını təmin edəcək sistem qurulmalıdır. Azərbaycan və Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində çox sıx əməkdaşlığını görmüşük. Bu gün biz qürur duyuruq ki, qardaş Türkiyədən Volkan bəy (Volkan Bozkır - red.) BMT-də vəzifədədir. İlham Əliyev Türk Şurasının Baş katibini qəbul edərkən bildirdi ki, biz artıq bunun təşkilat olaraq inkişafına nail olmalıyıq”.

**“Beynəlxalq siyasətdə beynəlxalq hüququn aliliyi qorunmur”**

**H.Hacıyev qeyd edib ki, beynəlxalq siyasətdə beynəlxalq hüququn aliliyi qorunmur:** ”Dövlətlər arasında gərginlik və beynəlxalq hüququ pozan addımlar getdikcə artmaqdadır. Bugünkü beynəlxalq münasibətlər 1929-30 illərdəki böhran şəraiti ilə müqayisə olunur. Bu gün beynəlxalq münasibətlərdə gərginlik müşahidə olunur. Ümid edirik ki, bu gərginliklər olmasın. Amma COVID-19-dan sonrakı mərhələdə gərginliklərin artması bizim coğrafiyamıza da təsir edə bilər. Qeyd edim ki, bizim coğrafiyamızda siyasəti dəyişməyə nail olduq. İşğala son qoyduq. Azərbaycan və Türkiyə münasibətləri regionun və Avropanın enerji təhlükəsizliyini təmin edir. Biz bunları bacardıq və daha irəli doğru baxmalıyıq”.

**“Azərbaycan və Türkiyə əlaqələrini bütün regionun siyasətini dəyişdirə biləcək şəkildə inkişaf etdirib”**

**Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan və Türkiyə əlaqələrini bütün regionun siyasətini dəyişdirə biləcək şəkildə inkişaf etdirib:** ”Gələn dövrlər ərzində də bizim qarşımızda duran əsas iş bu əlaqələrin bütün sahələrdə inkişafına nail olmaqdır. 2018-ci ildə Azərbaycanda keçirilən hərbi paradın çox böyük əhəmiyyəti olduğunu bildirib. 100 il öncə qardaş Türkiyənin dəstəyi ilə Bakı azad edilmişdi. 100 il sonra bu hadisə bir daha təkrarlanıb. Bu, sıradan hərbi parad deyildi. Bu, bizim ölkələrimizin birliyinin təcəssümü idi. 2020-ci ilin iyununda erməni təxribatlarına qardaş Türkiyə yetkililərinin bizə verdiyi dəstək də regionda yürüdülən siyasətə təsir etdi. Eyni zamanda hər bir türk vətəndaşının Azərbaycanın yanında olması bizi qürurlandırdı. Nəticədə, illərdir davam edən işğaldan azad olduq”.

**İsmayıl**

# Kreml geri addım atmayacaq

## Beynəlxalq təzyiqlərə baxmayaraq Navalnı 30 sutkasından sonra azadlığa buraxılacaq



G7 ölkələri Rusiya hökumətini bloger Aleksey Navalnını həbsdən azad etməyə çağırıb. Bu barədə "RİA Novosti" məlumat verib. Nazirlərin bəyanatında deyilir ki, Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Böyük Britaniya və ABŞ-ın xarici işlər nazirləri, eləcə də AB-nin yüksək statuslu nümayəndəsi, Aleksey Navalnının saxlanılmasını və siyasi motivli həbsini qətiyyətlə pisləyir. Bəyanatda yazılıb:

”Biz həmçinin minlərlə dinc nümayişçinin və jurnalistlərin saxlanılmasından da narahatıq və Rusiyanı özünün beynəlxalq və daxili öhdəliklərini yerinə yetirməyə, yanvarın 23-də özlərinin sərbəst toplaşma hüququnu reallaşdırmağa cəhd etdiklərinə görə saxlanılanları azad etməyə çağırırıq. Vətəndaşların öz rəylərini ifadə etmək hüququnu polislər vasitəsilə, güc yoluyla dəf etmək qəbuledilməzdir”.

Nazirlər həmçinin bildiriblər ki, Avropa İnsan Haqları Məhkəməsi Navalnının tutulmasına rəvac verən məhkəmə qərarını da dəstəkləməyib: ”Rusiya hökumətini qeyri-şərtsiz və dərhal cənab Navalnını azad etməyə çağırırıq. Biz cənab Navalnının, etirazçıların və jurnalistlərin həbsdən azad olunmaları barədə beynəlxalq çağırışlara Rusiyanın necə reaksiya verəcəyini, eləcə də cənab Navalnının zəhərlənməsinə görə cinayət işinin necə araşdırılacağını nəzarətdə saxlayacağıq”.

**Mövzu ilə bağlı fikirlərini bölüşən siyasi-şərhçi Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, bu bəyanatla Rusiyanın geri addım ataraq Navalnını həbsdən azad edəcəyini düşünmür. Ekspert qeyd edib ki, çünki bu, ilk növbədə Navalnının nüfuzunun daha da artmasına səbəb olacaq bir addım olar:** ”Amma belə bəyanatlar Navalnını növbəti həbslərdən azad edə bilər. Bildiyimiz kimi, indi 30 sutkalıq həbs edilib. Bu, administrativ həbsdir, yəni cinayət həbsi deyil. O, vaxt bitdikdən sonra azadlığa çıxa bilər. Çünki ehtimal var idi ki, 30 sutkadan sonra əvvəlki cinayət işləri bərpa edilərək, o uzunmüddətli, hətta bir neçə illik həbsə düşsün. Ən azından Rusiyaya yaxın çevrələrdən belə bir gözləntilər var idi. Bu tipli bəyanatlar gələcək həbsin qarşısını ala bilər və  Navalnının azadlığa çıxmağını təmin edə bilər. Amma vaxtından əvvəl azadlığa buraxılsa, böyük süpriz olar. Çünki bu sanki vətəndaşlarda belə bir düşüncə formalaşdıra bilər ki, Kreml geri addım atdı. Kremlin də  indiki durumunu nəzərə alsaq, bu heç də onların maraqlarına uyğun deyil. Ona görə də, belə bir fikrin yaranmasını qəbul etməzlər. Yəqin ki, 30 sutka tamam olduqdan sonra Navalnı azadlığa buraxılacaq. Çox güman ki, bu tipli beynəlxalq təpki də yenidən ona qarşı cinayət işinin açılmasının qarşısını alacaq bir faktora çevirəcək”.

**Aynurə Pənahqızı**

# “30 illik həsrət və göz yaşları arxada qaldı”

## Türkiyədən Prezidentə yazırlar: Ərdoğan və biz, türk xalqı olaraq Sizin yanınızdayıq

**Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız və Türkiyə vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:**

**Türkiyə, Trabzon şəhərindən Tülin Berrak Uzun:** Hörmətli Prezidentim İlham Əliyev, mən 16 yaşında məktəbliyəm, bir türk qızıyam. Adım Tülin Berrak Uzundur. Müzəffər Ali Baş Komandan İlham Əliyev, 30 illik həsrət və göz yaşı artıq geridə qaldı. 44 gün ərzində şanlı Azərbaycan Ordusu Ermənistana qalib gəldi. Onlar Ali Baş Komandanımızın ”dəmir” yumruğunun gücünü gördülər. Düşmənləri doğma torpaqlarınızdan qovdunuz. Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz hər gün sizlər üçün dualar etdik. Çox şükür, Azərbaycan Ordusu müzəffər oldu. Biz tək millət, iki dövlət olaraq bütün dünyaya gücümüzü göstərdik. Şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyev, Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm. Böyük zəfərinizi ürəkdən təbrik edirəm. Hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan və biz, türk xalqı olaraq Sizin yanınızdayıq. Düşmənlərimiz azad olunmuş torpaqlardakı məscidlərimizi viran qoyublar. Bilirəm ki, Sizin sayənizdə bu məscidlər yenidən bərpa olunacaq. Mən də bu işlərdə payım olsun deyə bir günlük xərcliyimi Qarabağ Dirçəliş Fonduna köçürülməsi üçün göndərirəm. İnşallah, dağılan evlərimizi, məscidlərimizi birlikdə yenidən quracaq, yollarımızı bərpa edəcəyik. Trabzondan Sizə sevgilərimi və salamlarımı göndərirəm. Bir gün mütləq Qarabağa gəlmək və Şuşanı görmək çox istərdim.

**Türkiyə, Dənizli şəhərindən Hasan Karakaya:** Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev, Sizlərə səmimi qəlbdən salamlarımı yetirir, Allahdan uğurlarınızın daimi olmasını diləyirəm. Qarabağ zəfərinizi ürəkdən təbrik edirəm. Sizin bu möhtəşəm qələbəniz bizi qürurlandırdı. Böyük qürur və fərəh hissi ilə yazdığım şeiri Sizin diqqətinizə təqdim etmək istərdim.



**Sabirabad şəhərindən Səbinə Qarayeva:** Çox hörmətli və dəyərli cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, Doğma Qarabağ torpaqlarımızın azad olunması və qazandığımız möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu böyük sevinci bizə Siz yaşatdınız, bu xoşbəxtliyi bizə Siz bəxş etdiniz. Sizə nə qədər təşəkkür etsək, minnətdar olsaq da azdır. Siz xalqımızın 30 illik həsrətinə son qoydunuz, bizləri doğma yurd yerlərimizə qovuşdurdunuz. Sevincimizin həddi-hüdudu yoxdur, cənab Prezident. Siz bütün dünyanı qarşınıza almaqla, həm döyüş meydanında, həm də siyasi arenada qalib gəldiniz. Beynəlxalq aləm bir daha Sizin liderliyinizin şahidi oldu.

**Gədəbəy şəhərindən Mircamal Talıbzadə:** Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan! Qazandığınız böyük müvəffəqiyyətlər münasibətilə Sizi ürəkdən təbrik edirik. Siz Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq, doğma Qarabağımızı işğaldan azad etdiniz. Siz dahi şəxsiyyət, Ulu Öndərimiz Heydər Əliyevin müdrik siyasətini layiqincə davam etdirirsiniz, onun vəsiyyətini şərəflə yerinə yetirdiniz. Bu gün onun ruhu şaddır, çünki o, doğma Azərbaycanı həmişə bugünkü kimi güclü və qüdrətli görmək istəyirdi. Sizin atanız, ümummilli liderimiz Heydər Əliyev düşünülmüş və uzaqgörən siyasəti ilə Azərbaycanı parçalanmaqdan xilas etdi. O, öz yorulmaz fəaliyyəti ilə bütün çətinliklərə sinə gərərək, doğma Azərbaycanımızın dünyada tanınması üçün əlindən gələni əsirgəmədi. Bu gün Azərbaycan xalqı Sizin sayənizdə qalib xalqdır.

**Sabirabad şəhərindən Nicat Məhəmmədov:** Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan! Sizi şanlı qələbəmiz münasibətilə ürəkdən təbrik edirəm. Bir azərbaycanlı kimi keçirdiyim qürur hissi ölçüyəgəlməzdir. Azərbaycan xalqı Sizinlə fəxr edir. Sizə uzun ömür, cansağlığı, bu şərəfli işinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram. Yolunuz daim açıq və uğurlu olsun!

**Aynurə Pənahqızı**

# “Burda anlaşılmazlıq var”



## 17 şəhid ailəsinin etirazı araşdırılmalıdır

Qaradağ rayonunda Vətən savaşında canından keçən 17 şəhidin məzarını su basıb. Şəhid ailələrinin ürək dağlayan görüntüləri sosial şəbəkələrdə yayılıb. Hər kəs məlum videonu qəzəblə qarşılayıb. Axı torpaq, millət uğrunda şirin canını qurban verən oğullarımız o bataqlığa yaraşırmı?



Əlbəttə yox! Şübhəsiz ki, tanrı onlara cənnətində yer verib. Lakin bəyaz kəfən içində, müqəddəs nəşləri suyun altında qalıb. Anaların fəryadı, haqlı etirazları ürəyimizə od salıb. Hamımız utanırıq! Üzümüz də yoxdur ki, ”bağışlayın” deyək. Zatən niyə əfv etsinlər ki, bizi?!

**Bu vəziyyətlə bağlı “Şərq”ə danışan millət vəkili Elman Nəsirov söyləyib ki, şəhidlər tarixi zəfərimizin memarlarıdır: ”Onlar vətən yolunda canlarını fəda ediblər. Onu da deyim ki, Prezident cənab İlham Əliyevin şəhid ailələrinə yüksək səviyyədə göstərdiyi qayğı da hər kəsə məlumdur. Son illərdə doqquz min şəhid ailəsi mənzillə təmin edilib.**

Ölkə başçısının bir neçə gün öncə imzaladığı Fərmanda da şəhid ailələrinə evlərin verilməsi, onlara sosial qayğının artırılması məsələsi öz əksini tapıb. Cənab Prezidentin fəaliyyətinin əsasında şəhid ailələrinə və müharibə veteranlarına dəstək durur. 17 şəhid ailəsinin etirazına gəlincə, bunu mən də eşitmişəm. Şəhidlərimizin dəfn olunduğu ərazinin su basma təhlükəsi ilə bağlı məlumatlar yayılıb. Ailələrinin etirazlarından da xəbərdaram.

Hesab edirəm ki, bu məsələ ciddi araşdırılmalıdır. Ardınca müvafiq qurumlar ictimaiyyətə açıqlama verməlidir. Fikrimcə, burda anlaşılmazlıq var. Çünki şəhid ailələrinə yüksək səviyyədə diqqətin göstərildiyi bir zamanda həmin hadisə dövlətin onlara olan qayğısına kölgə salır.

Bu, yolverilməzdir! Ona görə məsələ araşdırılıb, müsbət həllini tapmalıdır”.

**Samirə Ərəbova**

Hazırda müzakirə olunan məsələlərdən biri də bölgədə "altılıq formulu"nun reallaşdırılmasıdır. İlk dəfə Azərbaycan və Türkiyə prezidentlərinin Zəfər Paradındakı çıxışları və ondan sonra keçirdikləri mətbuat konfransında söylədikləri bir sıra fikirlər müxtəlif dairələrdə ciddi müzakirələrə səbəb olub.



“Altılıq” adlanan formatın bütövlükdə Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq üçün geniş imkanlar açacağını proqnozlaşdırırlar. Rusiya Prezidenti V.Putin də bu ideyaya müsbət yanaşıb. İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif də bu istiqamətdə xüsusi fəallıq göstərmək üçün qonşu ölkələrə səfərlər təşkil etməkdədir.

# “Altılıq platforması” strateji önəm daşıyır

## Azərbaycan bu prosesdə müstəqil güc mərkəzi və aparıcı aktor kimi çıxış edir

Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini öz milli güc resurslarından istifadə edərək hərbi-siyasi yolla həll etdi. **Bunun regionda yeni geosiyasi konfiqurasiyanın meydana çıxması üçün geniş imkanlar yaratdığını vurğulayan politoloq Nurlan Qələndərli “Şərq”ə açıqlamasında bildirib ki, bu kontekstdə, ilk növbədə, bölgədə yeni geostrateji əməkdaşlıq platformasının yaranması xüsusilə qeyd edilməlidir.** Onun sözlərinə görə, bölgədə yeni ”altılıq platforması” formatında işbirliyi mexanizminin formalaşması həm regional, həm də beynəlxalq əməkdaşlıq və təhlükəsizlik müstəvisində strateji önəm daşıyır: ”Şübhəsiz ki, Azərbaycan bu prosesdə müstəqil güc mərkəzi və aparıcı aktor kimi çıxış edir, qlobal əhəmiyyətli yeni regional geosiyasi konfiqurasiyada rol-statusları və yerləri müəyyənləşdirir. Bu, eyni zamanda, beynəlxalq təhlükəsizliyə fundamental töhfə kimi səciyyələndirilə bilər. Paralel olaraq nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması Cənubi Qafqaz və ətraf regionlarda ticari-iqtisadi münasibətlərin inkişafı, siyasi inteqrasiyanın genişləndirilməsi, çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir”.

*Politoloq qeyd edib ki, “altılıq formatı” kimi xarakterizə edilən əməkdaşlıq platforması Cənubi Qafqazın geostrateji statusunu yüksəltmək, bu regionu Avrasiyanın ”heartland” nöqtələrindən birinə çevirmək potensialına malikdir:* ”Ən əsası, regional supergücə çevrilən, beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında yüksəlişə malik olan Azərbaycan üçün yeni geoiqtisadi və geosiyasi dividendlər deməkdir”.

**Aynurə Pənahqızı**

## Putin proseslərdən məmnundur

### "Qarabağla bağlı 10 noyabr bəyanatı ardıcıl icra olunur"



**"Biz hökumətlər olaraq birlikdə problemlərə reaksiya verməliyik. Bu, regional münaqişələrin həllinə töhfə verməyə, müttəfiqliklər qurmağa, enerji dəhlizlərinin yaradılmasına, nəqliyyata və digər məsələlərə töhfə verə bilər. Yəni, bu hər kəsin xeyrinə olar".**

APA-nın xəbərinə görə, bunu dünən Rusiya Prezidenti Vladimir Putin Davos İqtisadi Forumunda videokonfrans formatında çıxışı zamanı deyib.

O bildirib ki, birgə səylərin göstərilməsi üçün böyük potensial mövcuddur: "Çoxtərəfli yanaşma müsbət nəticələr verir. Nümunə olaraq Astana platformasını göstərmək olar. Rusiya Suriyada vəziyyətin stabilləşməsi üçün Türkiyə və İranla birlikdə səylər göstərib. Suriyada siyasi dialoqun qurulması üçün səylər göstərmişik".

V. Putin qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi çərçivəsində hərbi əməliyyatların dayandırılması üçün də Rusiya vasitəçi kimi səylər göstərib və bu, kifayət qədər uğurlu olub: "Azərbaycan və erməni xalqları Rusiyaya yaxın xalqlardır. Biz onlara kömək etmək istəyirik. Yenidən vurğulayım ki, biz bu münaqişədə əsas format olan ATƏT-in Minsk Qrupu formatını izlədik. Bu formatda 3 ölkə var. Bu geniş əməkdaşlıq üçün gözəl modeldir. Noyabrda Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli bəyanat imzalandı. Bu bəyanat ardıcıl icra olunur. Biz qan tökülməsini dayandırmışıq. Bu, ən vacib nəticədir. Biz döyüşlərin dayandırılmasına və stabilliyə nail olduq. Artıq bu ölkələr normal vəziyyətinə dönür. Hazırda bu ölkələrin humanitar yardıma ehtiyacı var. Evlərini tərk etmiş insanlar geri qayıtmalı, infrastruktur bərpa olunmalı və s. işlər görülməlidir".

# "Burda qeyri-adi hal yoxdur"

### Vahid Əhmədov: "Naxçıvandan Mehriyə kommunikasiya xətti açılandan sonra Ermənistan da həmin istiqamətlərdən keçə bilər"



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Prezidentin köməkçisi Hikmət Hacıyev Azərbaycan-Türkiyə əlaqələrinin perspektivini şərh edib. O qeyd edib ki, Vətən müharibəsi bütün regionun geniş mənada geosiyasətini dəyişdirdi.

Prezidentin köməkçisi bildirib ki, əməkdaşlığa və inkişafa yönəltmək istiqamətində Türkiyə ilə Azərbaycan qarşısında mühüm vəzifələr durur.

"Türkiyə Cənubi Qafqazın hər üç ölkəsi ilə həmsərhəddir. Türkiyə bölgədə əldə olunmuş kövrək sülhün davamlı sülhə çevrilməsində mühüm rol oynamalıdır. Azərbaycanla Türkiyənin sıx birliyi üçün möhkəm zəminlər var" H.Hacıyev Azərbaycan-Türkiyə əlaqələrinin Gürcüstanın inkişafına müsbət təsirini də vurğulayıb, gələcəkdə Ermənistanın tranzit ölkəyə çevrilə bilmək ehtimalından söz açıb: "Naxçıvandan Mehriyə kommunikasiya xəttinin açılması da yaxın günlərdə müzakirə ediləcək. Bununla Ermənistan tranzit ölkəyə çevrilə bilər".

**Naxçıvandan Mehriyə yolun açılmasını yüksək qiymətləndirdiyini deyən millət vəkili, iqtisadçı Vahid Əhmədov "Şərq"ə bildirib ki, bu məsələ 10 noyabr üçtərəfli bəyanatında və 11 yanvar Moskva görüşündə müzakirə olunub:** "Türkiyə, Rusiya, İran və digər Avrasiya dövlətləri bu yoldan istifadə edəcəklər. Çünki həmin istiqamətə dəmir yolu da çəkiləcək. Təbii ki, Naxçıvandan Mehriyə kommunikasiya xətti açılandan sonra Ermənistan da həmin istiqamətlərdən keçə bilər. Burada qeyri-adi bir hal yoxdur".

*Millət vəkili Naxçıvandan Mehriyə gedən yolun Azərbaycan üçün çox əhəmiyyətli olduğunu diqqətə çatdırıb:* "Çünki Türkiyəyə gediş-gəliş üçün yalnız hava uçuşlarından istifadə edirik. Amma Naxçıvandan Mehriyə kommunikasiyanın açılması ilə Türkiyəyə birbaşa quru yolla getmək mümkün olacaq. Ona görə də sözügedən xəttin bərpası Azərbaycan - Türkiyə münasibətlərinin möhkəmlənməsi, iqtisadi əlaqələrin qurulması və inkişafına müsbət təsirini göstərəcək".

**Yeganə Bayramova**

# Qarabağa səfər anonsu hiylədir

### "Düşmənin məramı açıq-aydın təxribat törətmək, vəziyyəti gərginləşdirməkdir"



### "Ermənilər öz çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Çünki bölgədəki bütün hadisələr Azərbaycanın istədiyi istiqamətdə cərəyan edir"

Ermənistanın Yüksək texnologiya sənayesi naziri Akop Arşakyan yaxın günlərdə Qarabağın rus sülhməramlılarının nəzarətində olan hissəsinə gələcəyi barədə anons verib. Arşakyan Qarabağa səfərində məqsədin "informasiya texnologiyaları sahəsində" əlaqələrin inkişafı məsələlərini müzakirə etmək olduğunu deyib. Məlumdur ki, bir müddət əvvəl Xarici işlər naziri Ara Ayvazyan da Qarabağa qanunsuz səfər etmiş, separatçılarla görüşmüşdü.

Ermənistan rəsmilərinin Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfəri barədə rəsmi Bakı bir neçə dəfə Yerevana sərt xəbərdarlıq edib. Ancaq Ermənistan yenə də ərazi bütövlüyümüzü pozmağa, ölmüş qondarma quruma "can" verməyə çalışır. Xatırladaq ki, Ermənistan rəsmiləri bir müddət əvvəl də Azərbaycanı təxribata çəkir, bütün vasitələrlə müharibəni qızışdırır və müxtəlif bəyanatlar verirdilər. Cıdır düzündə rəqs etməkdən tutmuş Şuşanın "paytaxta" çevrilməsi istiqamətində açıqlamalar, "yeni müharibə - yeni ərazilər" şüarı, Qarabağın qondarma qurumunun "müstəqilliyi" haqda mövqe və açıqlamalara hər zaman Azərbaycanın həssaslıqla yanaşdığını açıqlamış və qarşı tərəfə xəbərdarlıqlar etmişdi. Xəbərdarlıqlara əhəmiyyət verməyən Ermənistan "Dəmir Yumruq"la qarşılaşdı və 44 gün ərzində darmadağın oldu. Əgər Ermənistan təxribatçı əməllərindən vaz keçməzsə, israrla intriqalarına davam edərsə, heç şübhəsiz, "Dəmir Yumruq" yenidən işə düşəcək.

**Siyasi şərhçi Anar İmanov "Şərq"ə açıqlamasında bildirib ki, Qarabağa qanunsuz səfərlərin məqsədi, ermənilərin bəyan etdiyi kimi "inkişafla" bağlı deyil. Düşmənin məramı açıq-aydın təxribat törətmək, vəziyyəti gərginləşdirməkdir:** "Ermənilər həm də bu səfərlərlə göstərmək istəyir ki, sanki hər şey onların çizdiyi planlarla gedir. Halbuki, bu, belə deyil. Bundan başqa təxribatçı səfərlər daxili auditoriyaya hesablanıb. Yerevan hökuməti hər şeyin Ermənistanın nəzarəti altında olduğunu, 44 günlük müharibədə tam məğlub olmadıqlarını sübut etməyə cəhd göstərir. Digər məqsəd isə Rusiyanı post-müharibə dövründə imicinə ləkə salmaqdır. "SOROS"a işləyən ermənilər Rusiyanın nüfuzunu aşağı salmaqla məşğuldurlar. Bu məqam Baş nazir Nikol Paşinyanın fəaliyyətində də özünü göstərir. Moskva görüşündə Paşinyanın sayıqlamaları göstərdi ki, kreslosunu qorumaq üçün hər şeyə hazırdır. Əvvəlcədən planlaşdırılan təxribatçı səfərlər də bu məqsədə xidmət edir".

**Analitik vurğulayıb ki, Ermənistan rəhbərliyi bu cür hərəkətlərlə yenidən Azərbaycanın qəzəbinə tuş gələ bilər:** "Dəmir yumruq" hələ qüvvədədir. Ermənilər öz çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Çünki bölgədəki bütün hadisələr Azərbaycanın istədiyi istiqamətdə cərəyan edir. Ermənistan mövcud reallığı nə qədər tez dərk etsə, erməni xalqı bir o qədər tez müddətdə ağ günə çıxacaq. Xatırladım ki, əvvəlki təxribatların sonu 44 günlük müharibə və məğlubiyyətlə nəticələndi. Bundan sonrakı qarşıdurma isə ümumiyyətlə Ermənistanın məhvinə gətirib çıxaracaq. Ona görə də yaxşı olar ki, ermənilər ağıllarını başlarına yığsınlar və sərsəm iddialarından əl çəkərək, qonşu ölkələrlə iqtisadi əməkdaşlıq mərhələsinə qədəm qoysunlar. Düşmənin nicatı bundadır".

**İsmayıl Qocayev**

## Türkiyə olmadan hərəkət etmək doğru deyil

### Birgə Monitorinq Mərkəzi bölgədə sülhü, sakitliyi qoruyacaq



**Qarabağdakı Rusiya-Türkiyə Monitorinq Mərkəzi yaxın günlərdə fəaliyyətə başlayacaq.**

Rusiya Müdafiə Nazirliyi bu haqda məlumat yayıb ki, Qarabağ bölgəsində atəşkəsə və bütün hərbi əməliyyatlara nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin tərkibində fəaliyyət göstərəcək rus hərbçiləri atəşkəs rejiminə nəzarəti birgə şəkildə yerinə yetirmək üçün təlim keçir və Azərbaycana getməyə hazırlaşırlar.

**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, siyasi şərhçi Elçin Mirzəbəyli mərkəzin fəaliyyəti ilə bağlı fikirlərini "Şərq"lə bölüşüb. O qeyd edib ki, qardaş ölkənin yanımızda olması bundan sonra daha əhəmiyyətlidir:** "Ölkəmiz ilk gündən Türkiyənin bölgədəki bütün proseslərdə iştirakını vacib sayır. Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələlərdə, eyni zamanda bölgədə təhlükəsizliyin təmin olunmasında qardaş ölkənin rolu mühüm əhəmiyyət kəsb edir. Türkiyə bölgədə balanslı ədalət yaradan bir dövlətdir. Düşünürəm ki, hazırkı vəziyyətdə Azərbaycanın qələbəsindən sonra sülhün, əmin-amanlığın bərqərar olması prosesində Türkiyə olmadan hərəkət etmək doğru deyil. İlkin şəraitdə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi proseslərin normal məcraya yönəlməsinə və bölgədə sakitliyin davamlı olmasına öz töhfəsini verəcək".

**Aytac Ali**

# Milonov erməni lobbisinin maliyyəsi hesabına danışır

## Ermənilər belə şəxslərlə özlərinə müdafiəçi "düzəldiblər"



Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" partiyasından olan üzvü Vitali Milonov Azərbaycan əleyhinə sərsəm və aqressiv fikirlər səsləndirib. Milonovun bütün sərhədləri aşan davranışlarına görə, Rusiya Federasiyasının Bakıdakı səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Onun Azərbaycan əleyhinə atdığı növbəti təxribatçı addımı Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə tamamilə zidd olduğu vurğulanıb.

Vitaliy Milonov ölkəmizin işğaldan azad olunmuş ərazisinə qeyri-qanuni səfər etdiyi üçün onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilib. Azərbaycan Xarici İşlər Nazirliyi vurğulayıb ki, Dövlət Dumasının üzvünün belə məsuliyyətsiz və Rusiya Federasiyasının rəsmi mövqeyinə uyğun gəlməyən davranışı ölkələrimiz arasında münasibətlərə kölgə salmaq cəhdidir: ”Onun bu çıxışı, həmçinin Rusiya da daxil olmaqla bölgə ölkələrinin uzun illərdir davam edən düşmənçiliyə son qoyulması və xalqlar arasında sülh, əmin-amanlıq və əməkdaşlığın təmin olunması istiqamətində atdığı addımlara xələl gətirir. Azərbaycan və Rusiya arasında strateji xarakterli tərəfdaşlıq münasibətləri hər iki ölkə prezidentlərinin sıx təmasları ilə intensiv şəkildə inkişaf etməkdədir”. Xatırladaq ki, Vitali Milonov hələ Sankt-Peterburq məclisinin deputatı olduğu dövrdən bu şəhərdəki erməni iş adamlarının və cinayətkar qrupların nəzarətindədir. Onların lobbiçiliyi sayəsində Milonov xeyli var-dövlət qazanıb. Sankt-Peterburq məclisinin deputatı olduğu qısa müddət ərzində dəyəri 200 min dollarından az olmayan villa inşa etdirib. Milonovun Azərbaycan və azərbaycanlılarla bağlı aqressiv, böhran xarakterli və təhqiramiz fikirlər səsləndirməsinə gəldikdə isə bunun da sifarişli olduğu deyilir.

**Qarabağ Azadlıq Təşkilatının rəhbəri Akif Nağı ”Şərq”ə bildirib ki, döyüş meydanında və diplomatiyada Azərbaycana uduzan Ermənistan tərəfi çıxılmaz vəziyyətə düşüb. QAT sədrinin sözlərinə görə, ağır durumdan və acınacaqlı görkəmdən xilas olmağa çalışan ermənilər xarici ölkələrin təmsilçilərinə, beynəlxalq təşkilatlara əl atırlar:** ”Ermənilər tarix böyük öz mövqelərinə uyğun çıxış edən, onları dəstəkləyən adamların axtarışında olublar. Belə şəxslər tapmadıqda özləri müdafiəçi ”düzəldiblər”. Milonov kimi adamların ortaya çıxması göstərir ki, heç kim təmənnasız, qarşılıqsız erməniləri dəstəkləmir. Rusiyada Konstantin Zatulin, Vitali Milonov kimiləri üzə çıxaranlar Amerika Senatında da ermənilərin sözünü deyəni asanlıqla tapırlar. Yüz faiz əmin olun ki, həmin şəxslərin hamısı erməni lobbisinin maliyyəsi hesabına danışır, onların təsiri ilə Azərbaycanı ittiham edirlər. Erməni diasporasından pul alan siyasilər hədyan fikirləri ilə aldıqları maliyyənin əvəzini qaytarırlar”.

*A.Nağı bildirib ki, Azərbaycanın mövqeyi elə sərt olmalıdır ki, hamıya dərs olsun və başqaları o fikrə düşməsinlər:* ”Milonovun açıqlaması ilə bağlı Rusiya Xarici İşlər Nazirliyinin müvəqqəti işlər vəkilinə xəbərdarlıq edilməsi düzgün addımdır. Belə məqamlarda dövlət maraqlarımız hər şeydən öndə dayanmalıdır. Xarici İşlər Nazirliyimiz fəal olmalı, əməli addımlar atmalıdır. Eyni zamanda Rusiya prezidentinə müraciət olunmalıdır ki, hakim partiyada o cür şəxslərə yer verməsinlər. Milli Məclis də Rusiya Dövlət Dumasına müraciət etməli, izahat istəməlidir”.

**İsmayıl Qocayev**

## Tonoyan etiraf etdi

### Azərbaycan tək Ermənistanla döyüşməyib



**Ermənistanın keçmiş Müdafiə naziri David Tonoyan erməni mediasına sensasion açıqlamalar verib.**

Onun 44 günlük müharibədə Ermənistanın məğlub olma səbəbləri ilə bağlı mühüm etiraf və məqamlar var. Bu etiraflarda Tonoyan qeyd edib ki, Rusiya İkinci Qarabağ müharibəsi dövründə Ermənistana kifayət qədər kömək edib: ”Müəyyən mülahizələrdən hər şeyi açıqlamayacam”. Bu ifadə məğlub ölkənin məğlub müdafiə nazirliyinə məxsusdur.

David Tonoyan dolayısı ilə etiraf edib ki, əslində Azərbaycan təkcə Ermənistana qarşı döyüşməyib. Maraqlıdır, savaş bitdikdən sonra onun belə bir açıqlama verməsində məqsəd nədir?

**Sualımızı cavablandıran politoloq Rusif Məmmədsoy ”Şərq”ə bildirib ki, Tonoyan Paşinyanın komandasının üzvlərindən biridir. Onun bu açıqlamasında heç bir məna yoxdur:** ”Onsuz da həm Azərbaycan, həm erməni cəmiyyəti bu həqiqətləri bilir. Putin açıqlamalarının birində söyləmişdi: ”Bəli, tarazlığı qorumaq üçün Ermənistanı tək qoymamalıydıq və ona hərbi yardımlar etmişik”. Bu baxımdan Tonoyanın fikirlərinə ehtiyac yox idi”.

Bəyanatın nəyə hesablandığına gəlincə, politoloq söyləyib ki, bu ya Tonoyanın boşboğazlığıdır, ya da Rusiyadan xal almaq istəyir: ”Yeni erməni cəmiyyətinin rəsmi Moskvaya qarşı aqressiyasını azaltmağa yönəlmiş addımdır. Təsadüfi deyil ki, PUA-larımızın vurduğu hərbi texnikaların əksəriyyəti məhz Rusiyanın texnikaları idi. Putin də açıq şəkildə Ermənistana edilən yardımları dilə gətirib. Ona görə də Tonoyanın belə ”etirafları” lazımsızdır”.

**Yeganə**

# Kiminin üzü gülür, kimiyə soyuqdur

## İki partiya yeni ofisində işinə başlayıb

Son dövrlər iqtidar nümayəndələrinin müxalifət təmsilçiləri ilə mütəmadi görüşləri, onların problemlərinin dinlənilməsi və həlli istiqamətində atılan addımlar ölkənin ictimai-siyasi sektorunda canlanma yaradıb. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyəti bu dialoqun fəal iştirakçılarına çevriliblər. Yeni siyasi mədəniyyətin təşəkkül tapması istiqamətində dövlət tərəfindən atılan mühüm addımlardan biri də 10-dan çox partiyanın mərkəzi qərargahla təmin olunmasıdır.








Məlum olduğu kimi bir müddət əvvəl siyasi partiyaların normal fəaliyyətinin təmin edilməsi, onların iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə təşkilatlara yeni ofislər verilib. Ofislərlə təmin olunmuş partiyaların yeni qərargahlarına köçüb-köçmədiklərini öyrənmək üçün bir neçə siyasi təşkilatla əlaqə saxladıq. Məlum oldu ki, partiyaların bir qismi təzə ofislərə daşınsalar da, digərləri hələ köçə başlamayıb.

**AĞ partiya sədrinin müavini Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında yeni qərargaha köçdüklərini deyib**: ”Bizə verilən yeni ofisdə fəaliyyətimizi davam etdiririk. Düzdür, bəzi texniki məsələlər həll olunmamış qalır. Həm də partiyamızın idarəçiləri və üzvləri son dönəmlərdə xeyli artıb. Ofisimiz daha böyük olsaydı, yaxşı olardı. Amma nəzərə alaq ki, uzun müddət ölkədə partiyaların, xüsusən müxalifyönlü təşkilatların qərargahı ümumiyyətlə olmayıb. Şəxsən biz illərlə axtarışda olsaq da, ofis tapa bilmirdik. İnsanlar müxalifət sözü eşidən kimi icarəyə otaq verməkdən çəkinirdilər. Əvvəlki duruma baxsaq, indiki vəziyyət qənaətbəxşdir”.

### Digər təşkilatlar isə istilik problemindən qərargahlarına köçə bilmirlər

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə də şəhərin mərkəzindəki yeni ofisə daşındıqlarını söyləyib:** ”Ofisimiz ”Lider” televiziyasının yerləşdiyi binadadır. İstilik problem olsa da, həlli mümkündür. Yeni qərargah bizim üçün çox önəmliydi. Çünki partiyamızın ofisi yox idi. Verilən məkan bizi qane edir. Hər halda müxalif partiyalara dövlət tərəfindən ofis verilməsi siyasi münasibətlər sistemində yeni mərhələnin başlanğıcıdır. Bu cür addımlar müxalif partiyaların inkişafına təkan verir”.

**AMİP təmsilçisi Əli Orucov isə pandemiya səbəbindən hələlik yeni ofisə köçmədiklərini deyib:** ”Koronavirusla bağlı məhdudiyyətlər səbəbindən əşyalarımızı təzə qərargaha daşıya bilməmişik. Ancaq köçməyə hazırıq. Düzdür, müəyyən sıxıntılarımız var. Ofis üçün zəruri olan mebel avadanlıqları, texniki ləvazimatlar hələ alınmayıb. Bununla bağlı çətinliklərimiz mövcuddur. Əlbəttə, partiyalara dövlət tərəfindən ofislərin verilməsi təqdirəlayiqdir. Amma partiyalara elə imkan yaradılmalıdır ki, öz maliyyə imkanları ilə, yaxud dövlətin ayırdığı vəsait hesabına istədikləri yerdə, əlverişli ofisi icarəyə götürə bilsinlər. Türkiyə təcrübəsi göz önündədir. Qardaş ölkədə partiyaların mərkəzi qərargahları möhtəşəmdir, hər cür təminatları var. Amma bizdə 10 partiyanı bir binanın iki-üç mərtəbəsinə yerləşdirib, hərəsinə də üç-dörd otaq veriblər. Bir siyasətçi kimi bunu məqbul saymıram. Vaxtı ilə AMİP-in ”Azadlıq” prospektində 4 mərtəbəli gözəl ofisi var idi. Amma bir gecədə bizi oradan çıxartdılar, əmlakımız da it-bata düşdü. Uzun müddət ”köçkün” həyatı yaşadıq. Onun müqabilində indi bizə 70-80 kvadrat metrlik ofis veriblər”.

**Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev də partiyanın yeni ofisə köçmədiyini bəyan edib:** ”Köçməməyimizin səbəbi odur ki, ofisə istilik verilməyib. Qərargahın ölçüsü bizi qane etsə də, yerləşdiyi ərazi o qədər də uyğun deyil. Hələlik digər problemlər də var ki, onları həll edəndən sonra köçməyi planlaşdırırıq”.

**İsmayıl Qocayev**



Azərbaycanın 44 günlük müharibədə qazandığı zəfər düşmənlərimizi nə qədər narahat etsə də, dostlarımızı bir o qədər sevindirdi, qürurlandırdı. Əlbəttə, xüsusilə qardaş Türkiyəni. Həmin günlərdə şəhərlərin mərkəzi küçələrində Azərbaycan bayrağını dalğalandırmaları, qələbəmizə dair şeirlər, məqalələr yazmaları, şəhidlərimizin fotolarını sosial media hesablarında paylaşmaları onu deməyə əsas verir ki, türk qardaşlarımız ilk gündən etibarən bizimlə birlikdə nəfəs alırdılar.

# "Azərbaycan dördtərəfli görüş tələb etməlidir"

## Türk professor: "10 noyabr razılaşmasındakı qeyri-müəyyənliklər aradan qaldırılmalıdır"

Növbəti həftələrdə baş verən proseslərə də laqeyd yanaşmadılar. İndi Ermənistan Baş naziri Nikol Paşinyanın "dalana dirəndiyi", İran Xarici işlər naziri Cavad Zərifin iştirakçı ölkələrə ard-arda səfərlər etdiyi bir vaxtda narahatlıqlarını da gizlətmirlər. Necə deyərlər, gözdə-qulaqdadırlar. Çünki "ilanın başının hələ tam əzilmədiyini" onlar yaxşı bilirlər. İlan isə elə sürünəndir ki, onun ağına da lənət, qarasına da...

**Türkiyəli professor, siyasi analitik Selçuk Duman baş verən hadisələrlə bağlı "Şərq"in suallarını cavablandırıb. Onun fikrincə, həqiqətən də bir yox, bir neçə "ilan"la mübarizə aparırıq:**

**- Azərbaycanın tarixi zəfərini necə qiymətləndirirsiniz?**

- Bu qələbə türklərin Qafqazda mühüm rol oynadığını təsdiqləyən növbəti faktordur. Çünki rus çarı III İvanın hakimiyyət illərindən etibarən Rusiyanın ərazilərini genişləndirmək iddiaları artmışdı. I Pyotr və II Yekaterina dövründə isə Ukraynanın işğalı nəticəsində çox ciddi hadisələr baş vermiş və 1774-cü ildə imzalanmış Kiçik Qaynarca müqaviləsi ilə Rusiyanın regionda "ağalıq" mərhələsi başlamışdı. Kremlin bölgəyə bu qədər maraqlı olması təsadüfi deyil. O, bir tərəfdən Şərqi Avropaya hakim olmaq, digər tərəfdən isə geosiyasi mənada türklərin kommunikasiyasına əngəl törətmək istəyir. Beləliklə, XIX əsrin əvvəllərindən etibarən Cənubi Qafqazdakı türk torpaqlarının, yəni Azərbaycanın işğalı başladılmışdı. İşğal mərhələsinin sonunda Rusiya İranla 1813-cü ildə imzaladığı Gülüstan və 1828-ci ildə imzaladığı Türkmənçay müqavilələri ilə Şimali Azərbaycana yerləşmişdi. 1991-ci ilədək Azərbaycan, Gürcüstan və Ermənistanı birbaşa idarə edən imperialist ölkə həmin tarixdə Ermənistanla razılığa gəlmişdi. Nəticədə Qarabağ probleminin yaranması və yeddi rayonun işğal edilərək qərb qonşularınıza verilməsi ilə Kreml bilavasitə Ermənistan vasitəsilə regiondakı nüfuzunu saxlamışdı. İndi Azərbaycanın qazandığı zəfər nəticəsində Rusiyanın Ermənistanın "əli" ilə regionu idarə etmək məsələsi sual altına düşdü. Və biz regionda ciddi iştirakçılardan biri olduğumuzu göstərdik.

**- Bildiyiniz kimi, 10 noyabr bəyanatına əməl edilmir. Qarabağdakı rus sülhməramlıları vəzifələrini yerinə yetirmirlər...**

- Gəlin, səmimi olaq. Azərbaycan daha bir neçə həftə Qarabağı tamamilə boşalda biləcək gücə sahibkən Rusiyanın da iştirakı ilə masaya oturmaqla əslində riskə getdi. Çünki "Ermənistan" adlanan dövlətin beynəlxalq müstəvidə uğursuz ad çıxardığı, onun Rusiya tərəfindən idarə edilən siyasi sistemə malik olması və Moskvanın Cənubi Qafqazdakı mübahisəli durumu daha da mürəkkəbləşdirmək üçün çalışdığı məlumdur. Həmçinin imzalanan sənədə əsasən, Rusiyanın bölgədə qalıcılığı təmin edildi. Bu azmış kimi, Qarabağın taleyi, oradakı erməni silahlı birləşmələrinin mövcudluğu, nədənsə, yada düşmədi. Hətta Laçın dəhlizi vasitəsilə Ermənistanla Qarabağın əlaqəsi təmin edildi. Ciddi problemləri olan bu razılıqdan sonra Rusiya ərazidə nəzarətini saxlamaq niyyətindədir. Azərbaycan Türkiyənin də iştirakı ilə dördtərəfli görüş tələb etməli və 10 noyabr razılaşmasındakı qeyri-müəyyənlikləri aradan qaldırmalıdır. Yəni sözün qısası, Qarabağın Azərbaycan torpağı olduğu, buradakı erməni hökumətinin ləğvi, düşmən silahlı qüvvələrinin neytrallaşması kimi məsələlər yenidən gündəmə gəlməlidir.

**- Türk sülhməramlılarının bölgədə olması ilə nələr dəyişəcək?**

- Əslində belə bir məsələ 10 noyabr bəyanatında yox idi. Azərbaycan və Türkiyə dövlət başçılarının təkidi ilə sonradan müvafiq qərar verildi. Türk sülhməramlılarının Ağdama yerləşməsi təsadüfi deyil. Belə ki, Rusiya türkləri ermənilərdən mümkün olduğu qədər uzaq saxlamaq istəyir. Amma nə olur olsun, bizim Qarabağda olmağımız Türkiyənin regional gücündən xəbər verməklə yanaşı, həm də məsələnin iştirakçısı kimi çıxış etdiyini göstərir. Yəni Azərbaycan tək deyil və olmayacaq! Rusiyanın Azərbaycanı və Türkiyəni qarşısına alması onun əleyhinədir. Yəni bundan sonrasını Kreml düşünsün!

> **"Azərbaycan tək deyil və olmayacaq. Rusiyanın Azərbaycanı və Türkiyəni qarşısına alması onun əleyhinədir. Yəni bundan sonrasını Kreml düşünsün!"**

**- Ermənistan Baş naziri Nikol Paşinyan yanvarın 11-də Moskvada keçirilən üçtərəfli görüşdə məsələnin hələ bitmədiyini dilə gətirdi. O, nə demək istəyirdi?**

- Ermənistan hərbi və iqtisadi cəhətdən böhran ərəfəsindədir. Bunu özünün də başa düşdüyü bir vaxtda yeni savaşa başlaması mümkünsüzdür. Paşinyan həmin nitqi ilə əslində imperialist dövlətlərin Ermənistan üçün atacağı addımları nəzərdə tutub. Bu istiqamətdə xüsusilə Fransa fəal olsa da, Türkiyə ilə mübarizədə dəfələrlə uduzduğuna görə Azərbaycana da təzyiqi yox dərəcəsindədir. İsrailin Azərbaycana dəstəyini görən ABŞ "mən də burdayam" deyir. Amma bundan artıq bir şey etmir. İran müharibənin ilk günlərindən etibarən Ermənistanı dəstəkləsə də, Cənubi Azərbaycandakı etirazlardan sonra "özünü yığışdırmalı" olmuşdu. İndi Paşinyan üçün yeganə çarə Rusiyadır. Kreml isə Türkiyə ilə münasibətləri pozmamaqdan ötrü, bundan sonra forpostunun "nazı ilə oynamaz".

> **"Moskva Cənubi Qafqazda da eyni situasiya ilə üzləşmək istəmirsə, regional həllə razı olmalıdır"**

**- Azərbaycan və Türkiyə dövlət başçılarının haqqında danışdıqları altılıq platforması ilə bağlı nə düşünürsünüz?**

- Bu, daha çox Türkiyə-Rusiya münasibətlərindən, iki tərəfin yaxınlaşmasından asılıdır. ABŞ və Avropa Birliyi Rusiyanı ayrı-ayrı bölgələrdə, o cümlədən Qara dənizdə, Aralıq dənizində sıxışdırmaqdadır. Moskva Cənubi Qafqazda da eyni situasiya ilə üzləşmək istəmirsə, regional həllə razı olmalıdır. Belə bir məsələ İranın da xeyrinədir. Əks halda onun üçün ciddi təhdidlər yaranacaq. Gürcüstan isə bütün hallarda Türkiyə və Azərbaycanla birgə addımlayacaq. Yəni məsələ kifayət qədər vacib və aktualdır.

**- Dünya Azərbaycan və Türkiyənin qardaşlığından nəticə çıxaracaq?**

- İki qardaş dövlətin beynəlxalq diplomatiyada birgə hərəkət etməsi və siyasi, iqtisadi, hərbi, mədəni baxımdan dərin münasibətlər qurması, əlbəttə, çox vacibdir. Amma sualın belə qoyulması düzgün olmaz. Azərbaycanın, Türkiyənin kimsə ilə işi yoxdur. Biz müstəqil dövlətlər kimi öz siyasətimizi yeridirik və kimin üçünsə təhlükə mənbəyi deyilik. Yetər ki, bizə qarşı səhv addım atılmasın.

**- Baş verən hadisələrdə İranın ritorikası, yəqin, nəzərinizdən yayınmadı?**

- İran XIX əsrin sonlarından etibarən imperialist qüvvələrin arasına düşmüşdü. Və 1924-cü ildə farsların hakimiyyətə gəlməsi ilə İranın idarəçiliyi Böyük Britaniyanın əlinə keçdi. 1941-ci ildən sonra isə ABŞ-la Böyük Britaniya İranı birlikdə idarə etməyə başladılar. 1979-cu ildəki inqilabla ölkədə yeni mərhələ başlandı. Yeni sistem diktatorluğa əsaslandığı üçün hər kəsi narahat edirdi. İndi rəsmi Tehran həm beynəlxalq aləmdən təcrid olunub, həm də daxildə ciddi problemlərlə üzüzədir. Bu gün Azərbaycan türklərinin neytrallaşması İranın prioritetlərindəndir. Bütün addımlarını da bu istiqamətdə atır. Çünki İran Azərbaycan türkləri məsələsini beynəlxalq təhlükəsizliyi kimi qiymətləndirir.

**- Artıq Zəngəzurun Azərbaycana qaytarılması barədə müzakirələr gedir. Yəni zəfərin astanasında ola bilərik?**

- Təəssüf ki, 10 noyabr razılaşmasında bu məsələ gündəmə gəlmədi. Amma şansımız var idi. Hər halda Laçından Qarabağa verilən 5 kilometrliyində dəhlizin əvəzində, Zəngəzuru istəyə bilərdik. Əlbəttə, Zəngəzur mühüm strateji əhəmiyyətə malikdir. Beləliklə, İranla Ermənistanın əlaqəsi kəsiləcək və düşmənə "humanitar yardımlar" olmayacaq.

**- Proseslərin bundan sonrakı inkişafına dair nə deyə bilərsiniz?**

- Fikrimcə, Rusiya ilə növbəti danışıqlara ehtiyac olacaq. Fəqət Qarabağda rus qoşunlar yerləşdiyinə görə, müharibə ehtimalını istisna edirəm.

**Kənan Novruzov**

# “Çox çətin relyefdə hücuma keçəcəkdik”

## Aqşin Kərimov: “Həmin ərəfədə müharibənin bitdiyi xəbərini aldıq, hücum əmri geri götürüldü”



**İkinci Qarabağ savaşında cəbhəyə yollanıb qələmi süngüyə çevirən jurnalistlərimiz də var. Onlar bu dəfə haqlarımızı qələmlə deyil, silahla müdafiə etdilər. Ərazi bütövlüyümüz, xalqımızın rifahı uğrunda canla-başla cəbhəyə yollandılar.**

**Vətən müharibəsində iştirak edən media nümayəndələri arasında “Oxu.az” saytının əməkdaşı Aqşin Kərimov da var. O, “Şərq”ə müsahibəsində 44 gün ərzində yaşadıqları, qələbə ilə evə döndüyü an keçirdiyi hisslərdən danışıb.**

**- Müharibə başlayarkən siz də ordu sıralarında oldunuz, könüllü olaraq getmişdiniz?**

- Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı rayon şöbəsindən çağırış vərəqi gəlmişdi. Buna qədər özümü müharibəyə hazırlayırdım, fiziki hazırlıq səviyyəmi daha da qaldırmışdım. Müharibə filmlərinə daha da çox baxırdım ki, psixoloji hazırlığıma təsir göstərsin. Mənə ”Aqşin müharibə olsa gedəcəksən?” kimi suallar çox verilirdi, həmişə ”hə” cavabını verirdim. Düzü, artıq vaxtın yetişdiyini hiss edirdim, özümü müharibədə görürdüm. Yadıma gəlir, idman edərkən daha çox döyüş üçün lazım olan hərəkətləri edirdim - yerdə sürünmək, özünü tullayıb yerə atmaq və sair. Nəhayət, zaman yetişdi və gözlədiyim kimi məni müharibəyə çağırdılar, bu çağırışdan kənarda qalmaq mənim üçün əskiklik olardı. Mən ”kimdən artığam ki, getmirəm” demirdim, ”kimdən əskiyəm ki, müharibəyə yollanmıram” deyirdim.

**- Müharibədən əvvəl jurnalist kimi cəbhə bölgəsində olmuşdunuz?**

- İyulda Tovuz döyüşlərində qələm əhli kimi iştirak etmişdim. Tovuz döyüşləri bəlkə də mənim üçün həm də müharibə sınağı idi. Çünki orada da neçə dəfə təhlükə altında olduq, mərmilər yaxınlığımıza düşdü. Artilleriya atəşlərinə qulaqlarım alışdı, özü də bu dəfə poliqonda yox, real döyüş meydanında. Sonradan bu mənə müharibə zaman psixoloji üstünlük də verirdi, yəni mərmi səsləri eşidəndə çox soyuqqanlı davranırdım, ancaq ehtiyatı da əldən vermirdim.

**- Ailəniz gedişinizi necə qarşılamışdı?**

- Ailəmə də, atama da, anama da demişdim ki, müharibə başlasa, cəbhəyə gedəcəm. Yoldaşımı, qızımı da yoxluğuma hazırlayırdım, ən azından müvəqqəti yoxluğa. Beş yaşlı qızımı da öyrəşdirirdim, deyirdim ki, ata ermənilərə qarşı müharibəyə gedəcək. O da mənə arada sual verirdi ki, ata, ermənilərlə nə vaxt müharibəyə gedirsən?

Hamısına soyuqqanlı olmağı demişdim. Çağırış vərəqi gələndə artıq vaxtın yetişdiyini dedim, görüşdüm, qucaqladım hamısını, başıma nə gələcəyini bilməsəm də, ürəklə, böyük şövqlə cəbhəyə yollandım.

Müharibə olduğundan cəbhə xəttinə yaxınlaşdıqca topların, raketlərin səsi bizi müşayiət edirdi.

**- Bir az da döyüş yolunuzdan danışaq...**

- Döyüş yolum Ballıqaya, Murov istiqamətində keçdi. Tarix yazılmasına şahidlik etmək, o tarixin bir parçası olmaq böyük fəxrdir. Hərbi hissənin bölmələri Talış, Suqovuşan istiqamətində idi. Müharibə çətinlikdir, dözüm tələb edir, hər şeyə hazır olmalısan. Hətta 10 saniyə sonra başına nə gələcəyini bilmirsən. Oturduğun, yemək yediyin, ya da yatdığın yerdə artilleriya atəşi səni haqlayır. Sağ qaldığını isə bilmirsən hansı səbəblə əlaqələndirəsən - qismətləmi, yoxsa düzgün qorunmağınla? Məncə, qismətdir. Taledən söz düşmüşkən, bir məqamı da deyim.

Müharibədən sonra minaya düşərək şəhid olan polkovnik Babək Səmidli bizi psixoloji olaraq döyüşə hazırlayarkən deyirdi:

**- Ya şəhid olacaqsınız, ya qazi olacaqsınız, ya döyüşüb evinizə salamat qayıdacaqsınız. Şəhid olmaq isə ən böyük zirvədir, hər adama qismət olmur.**

Qarşımızda çıxışı hamımızı daha da ruhlandırırdı. Elə oldu ki, özü ən böyük zirvəyə yüksəldi.

**- Müharibədə yaşadıqlarınızı yazmağı düşünürsünüz?**

- Bəli, belə bir planım var.





**“Beş yaşlı qızımı da öyrəşdirirdim, deyirdim ki, ata ermənilərə qarşı müharibəyə gedəcək”**

**- Həm jurnalist, həm də döyüşçü kimi Vətən müharibəsində iştirak etmək necə hissdir?**

- Təsəvvür edin, müharibədə jurnalist olduğuma görə hamı mənə yaxınlaşır, ağzımdan qələbə xəbərini eşitmək istəyirdi. ”Sən jurnalistsən də, xəbərin olar” deyə sual verirdilər. Mən isə burada əsgər olduğumu, onlar kimi hadisələrdən xəbərsizliyimi deyirdim.

Bir tərəfdən də xoş hiss idi, çünki hamı sənə yaxınlaşır, sual verir, müzakirələr açmaq istəyir və səni dinləyir. Axı jurnalistsən.

**- Döyüş zamanı heç vaxt unuda bilməyəcəyiniz hansı hadisəni danışa bilərsiniz?**

- Yalnız birini deyəcəyəm. Müharibə bitən gün biri atama zəng edib. Gecə olduğuna görə, atam çox narahat olub, deyib ki, yəqin Aqşinin ”qara xəbərini” verəcəklər. Özü də ürəyi xəstədir. Həyəcanla telefonu açıb. Zəng edən adam ”əmi, təbrik edirəm, müharibə bitdi” deyib, telefonu söndürüb. Atam nə qədər geri zəng etsə də, telefonu qapalı olub. Televizoru açıb, görüb ki, Prezident xalqa müraciət edir, zəfər qazandığımızı deyir.



Səhəri gün həmin nömrəyə zəng edib, adam açıb, deyib ki, əmi bağışla, nömrəni səhv yığmışdım. Atam isə ona təşəkkür edib, deyib ki, nə bağışla, sən mənə dünyanın ən yaxşı xəbərini vermisən.

**- Ailəniz tərxis olunub gələndə sizi necə qarşıladı?**

- Xalqımızın ənənəsi var, kimsə uzaqdan, ya da təhlükəli yerdən gələndə onun qarşısında yaxınları qurban kəsir. Qurban kəsildi, atam, anam, yoldaşım, qardaşım, kövrəldi, qucaqlaşdıq...

**- Yəqin ki, döyüşçü olmaq jurnalist olmaqdan daha çətin idi...**

- Təbii ki, döyüşçü olmaq üçün verilən tələblər bir başqadır.

**- Qələbə xəbəri sizə necə deyildi?**

- Hücuma keçdiyimiz zaman qələbə xəbəri gəldi. İnanmırdıq. Nədənsə, müharibə zamanı həmişə düşünürdüm ki, gözləmədiyim bir zamanda gözlənilməz bir hadisə olacaq. Elə də oldu. Çox çətin relyefdə hücuma keçəcəyimiz ərəfədə müharibənin bitdiyi xəbərini aldıq, hücum əmri geri götürüldü.

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

# Akademiyada nə baş verir?

## “Yəqin ki, “az maaşla çox iş tələb etmək”, yaxud ”keyfiyyətsiz elmi işlə məşğul olmaq” kimi neqativ nüanslar aradan qalxacaq”

İctimaiyyətə məlumat verildiyi kimi 8 yanvar 2021-ci il tarixində AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib və akademiyada islahatlar xəttinin dərinləşdirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq qərarlar qəbul edilib. Qurum tərəfindən vurğulanıb ki, Akademiyada aparılan islahatlar ümumilikdə Prezident İlham Əliyev tərəfindən başladılan islahatların, yenilənmə siyasətinin tərkib hissəsidir və bu xəttin ruhuna uyğundur.

Görülən tədbirlərin başlıca məqsədi akademiyada qanunun aliliyini təmin etmək, elmi idarəçiliyi və tədqiqatları müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır. Artıq Azərbaycan Milli Elmlər Akademiyasında islahatlar gözə çarpmaqdadır. Son günlər ərzində qurumun Tarix İnstitutunun direktoru Yaqub Mahmudov vəzifəsindən azad olunub. Məlumata görə, akademik öz ərizəsi ilə işdən azad edilib. O, AMEA prezidentinin müşaviri təyin edilib. AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru vəzifəsinə isə səsvermə yolu ilə tarix üzrə elmlər doktoru, professor Kərim Şükürov seçilib. Bundan başqa, akademik Arif Həşimov Fizika İnstitutunun baş direktoru, fizika üzrə elmlər doktoru Anar Rüstəmov institutun icraçı direktoru, akademik Əli Abbasov İdarəetmə Sistemləri İnstitutuna baş direktor, AMEA müxbir üzvü Əminağa Sadıqov isə icraçı direktor təyin edilib. Digər bir məlumata əsasən, Radiasiya Problemləri İnstitutunun direktoru və ümumi işlər üzrə direktor müavini işlərində yol verdikləri ciddi nöqsanlara görə vəzifələrindən azad ediliblər. Həmçinin, müəssisənin bir sıra əməkdaşları barəsində əmək intizamı tədbirləri görülüb. Akademiyada kadr islahatlarının davam edəcəyi deyilir.

**Qurumdakı islahatlarla bağlı fikirlərini ”Şərq”ə bölüşən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, türkoloq Faiq Ələkbərli deyib ki, Azərbaycan Milli Elmlər Akademiyasındakı kadr dəyişiklikləri, bəzi institut direktorlarının vəzifədən azad olunması elm ocağının daha aktiv və səmərəli fəaliyyətinə hesablanıb. Alim ümid edir ki, islahatlar yaxın zamanda müsbət nəticəsini verəcək:** ”Akademiyanın bütün sahələrində həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişikliyə ehtiyac var və bu dəyişikliklərin olacağı ehtimalı böyükdür. Əfsuslar olsun ki, uzun müddət AMEA-da islahatların şahidi olmadıq. Bundan sonra ciddi dəyişikliyin olacağını zənn edirik. Hər halda dünyada gedən proseslər, qloballaşma, müasir dövrün tələbləri və yeni çağırışlara vaxtında cavab verilməlidir. Dövrün yeni çağırışları akademiyanın fəaliyyətində də öz əksini tapmalıdır. Yəqin ki, ”az maaşla çox iş tələb etmək”, yaxud ”keyfiyyətsiz elmi işlə məşğul olmaq” kimi neqativ nüanslar aradan qalxacaq”.

**Faiq Ələkbərli: “Gəncləşmə siyasətinə də üstünlük verilməlidir”**



**F.Ələkbərli vurğulayıb ki, AMEA rəhbərliyi mövcud problemlərin fərqindədir və kimin necə işlədiyi hamıya bəllidir:** ”İstəyimiz odur ki, bütün problemlər sözün həqiqi mənasında həllini tapsın. Kadr dəyişikliyinin müsbət nəticəsi olmalıdır. Əgər olmursa, təyinatın da əhəmiyyəti qalmır. Akademiyada gəncləşmə siyasətinə də üstünlük verilməlidir. Əgər bir çox tələblər üst-üstə düşərsə, AMEA-dan pozitiv tendensiya, səmərəli fəaliyyət gözləmək mümkündür”.

**İsmayıl Qocayev**

# Bu çiçək, o çiçək deyil



**Şuşanın düşmən tapdağından azad edilməsiylə, xarıbülbül də Bakıya ayaq açdı. Vətən müharibəsindəki şanlı qələbəmizin rəmzi seçildi və 8 Noyabr Zəfər Günü də xarıbülbül çiçəyi ilə interpretasiya olundu. Və 28 il əsarətdə qalmış çiçəyin - Qarabağın, Şuşanın rəmzi kimi tanınan bir çiçəyin buna tamamilə haqqı çatırdı. Xarıbülbül həm də gözəllik, incəlik, ülviyyət, ismət rəmzi kimi qəbul edilir. Qəhrəmanlığı ilə yanaşı, özündə eyni zamanda gözəllik və müqəddəslik daşıyan böyük bir obanın, elin rəmzinin məhz xarıbülbül çiçəyi seçilməsi bu mənada məntiqidir və tamamilə doğrudur.**






## Bakıda 15 manata satılan xarıbülbül Şuşadan gətirilməyib

Xarıbülbülün qələbəmizin rəmzi seçilməsi bu çiçəyə marağı birə-on artırıb. Artıq gül salonları, çiçək mağazaları xarıbülbül satışını təşkil edir, internetdə bununla bağlı elanlara da rast gəlinir, dibçəklərdə xarıbülbül çiçəyi satıldığı anons edilir. Qiyməti 15 manatdır. Xüsusilə vurğulanır ki, bu qiymət dibçəkdəki bir çiçəyin dəyəridir. Böyük dibçəkdə 2-3 çiçək, kiçik dibçəkdə isə 1 çiçək olduğu bildirilir. Xəbərdarlıq da edilir ki, çiçəklər torpaqda yetişdirilib, yazağzı - martda çiçək açacaqlar. Onlayn sifarişlər qəbul olunur, dibçəklər Xaçmazdan gətiriləcək.

Xarıbülbülün bu qədər sevilməsi, yayılması, ona bunca diqqət, qayğı bir tərəfdən xoşdur, digər tərəfdən isə işbazların fürsətcilliyinə heyran olmaya bilmirsən. İstəristəməz düşünürsən ki, niyə bu iş adamları, illər öncə xarıbülbül çiçəyini yetişdirib satışa çıxarmırdı? Xalq xarıbülbülə həsrət qalmışdı. Bir halda ki, bu çiçəyi Xaçmazda, ya da paytaxtda yetişdirmək mümkündü, niyə bunu illər öncə etmirdilər. Məlum məsələdir ki, hazırda satışı təşkil olunan xarıbülbül çiçəyi Şuşadan gətirilməyib. Bəlkə bir qədər sonra - gediş-gəliş, məskunlaşma tam bərpa olunandan sonra gətirəcəklər, Bakıda da yetişdirəcəklər, nə bilmək olar. Amma bir tarixi həqiqət də var axı. Rəvayət qısaca belədir ki, Qarabağ xanının qızı Ağabəyim ağa İran şahı Fətəli xanla evləndirilib Tehrana göndəriləndə xan qızı Vətən həsrəti azalsın deyə, saray bağçasında Qarabağdan, Şuşadan gətirilmiş ağaclar, çiçəklər yetişdirilməsini istəyib. Hər ağac, çiçək bitib, böyüyüb, təkcə xarıbülbül çiçəyi, nə illah ediblərsə də, bitməyib. Öz doğma torpağından - Şuşadan kənarda yetişməyib. İndi bizim fürsətcillər Xaçmazda xarıbülbül yetişdirir; ey dadi-bidad!

Bəs, dibçəklərdə yetişdirilən xarıbülbül çiçəyi həqiqətən Şuşada bitən çiçəkdimi?

**Əslən Şuşadan olan, Böyük Qələbəmizdən sonra hər gün, hər saat Şuşaya qayıdacağı günü, saatı gözləyən peşəkar həmkarımız Kəmalə Cahidqızı "Şərq"ə açıqlamasında dedi ki, bu çiçək, o çiçək deyil:**

- Qarabağlılar, şuşalılar xarıbülbülü tanıyır. Doğrudur, xarıbülbül Şamaxıda, İsmayıllada da bitir. Amma Şuşada bitən xarıbülbül deyil. Şuşanın xarıbülbülü başqadır, fərqlidir. Son zamanlar müxtəlif bəzək əşyalarının tərtibatında da xarıbülbüldən istifadə edilir. Gümüş dəst hazırlanır, sırğa, üzük. Xarıbülbül boyunbağısı da var. Sancaq da var. Xarıbülbül rəmz kimi də artıq məşhurdur. Amma bu xarıbülbülün rəngi də Şuşadakı xarıbülbülün rəngində deyil. Şuşanın xarıbülbülü 3 hissədən ibarətdir: gül-bülbül-arı. Bülbül sarımtıl yaşıl, arı isə tünd qəhvəyi rəngdə olur. Gül isə çox açıq yasəmən rəngində. Hazırda rəmz formasında təqdim olunan xarıbülbüldə isə bənövşəyi rəng üstündür. Hətta arı da bənövşəyi rəngdədir. Bənövşəyi rəngdə arı olmur. Təbiilikdən uzaqdı. Anlaşılandı, necə düzəlir düzəlsin, o, təbii çiçək kimi ola bilməz. Xarıbülbülü parnikdə, dibçəkdə, harda istəsələr yetişdirə bilərlər, amma o, Şuşanın xarıbülbülü olmayacaq. İstəməzdim ki, xarıbülbül bu qədər ucuzlaşsın. Qiymət, maddi dəyər baxımından demirəm. Mənəvi baxımdan ucuzlaşdırmasınlar gərək bu çiçəyi. İstəmirəm xarıbülbül qərənfilin taleyini yaşasın. Adiləşməsin. Həddindən artıq populyarlıq sonda ucuzluq gətirir. Hər şeydə qazanc güdməyək. Xarıbülbülü ucuzlaşdırıb hamı üçün əlçatan etməsinlər. Xarıbülbülün yurdu Qarabağ, Şuşadır. O çiçək o torpağa mənsubdur. Onu Bakıda, ya da başqa hansısa şəhərdə yetişdirməyin nə mənası?!



*Xarıbülbül çiçəyi haqqında rəsmi məlumatlar isə bundan ibarətdir ki, onun elmi adı Qafqaz qaş səhləbidir. Latınca ophrys caucasica - Qafqaz ofrisi adlanır. Azərbaycanda el arasında xarıbülbül adlanır. Bu da çiçəyin gül və bülbülü xatırlatmasına görədir. Səhləbkimilər fəsiləsinə aiddir. 2007-ci ildə xarıbülbül şəkli ilə Azərbaycanda poçt markası da buraxılıb.*

*Aprel ayında çiçəkləyir. Dekorativ gözəlliyinə görə əhali tərəfindən intensiv toplandığı üçün itirilmə təhlükəsi yarandığından "Qırmızı Kitaba" daxil edilib.*

*Daha çox Şuşa və ətraf ərazilərdə, həmçinin Samur - Dəvəçi, Kür-Araz və Xəzərsahili (Siyəzən rayonu, Beşbarmaq dağının təpə hissəsində) ovalıqlar, Kür düzənliyi, Abşeron, Diabar, Kiçik Qafqazın cənub rayonlarında rast gəlinir. Otlu yamaclarda, meşə açıqlıqlarında və kolluqlarında və Cəbrayıl rayonu istiqamətlərində bitir.*

**Məlahət Rzayeva**

# Ölüm halları 5 nəfərə düşdü

## 601 nəfər koronavirusdan sağalıb, 226 nəfər yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 226 yeni yoluxma faktı qeydə alınıb, 601 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 229 584 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 221 717 nəfər müalicə olunaraq sağalıb, 3 105 nəfər vəfat edib, aktiv xəstə sayı 4 762 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 458, ötən müddət ərzində isə ümumilikdə 2 380 074 test aparılıb.

# Vəziyyətə heç kim zəmanət vermir

## Ola bilər ki, dərslər yenidən dayandırılsın



**Növbəti həftə Bakı, Abşeron və digər iri şəhərlərdə məktəbəhazırlıq, icma əsaslı məktəbəqədər qruplar və ibtidai siniflər üzə təhsil bərpa edilir. Əyani dərslərin həftədə üç dəfə, kiçik kəndlərdə isə həftədə 4-5 dəfə olmaqla bərpası haqqında qərar verilib.**

Virus təhlükəsinin mövcud olduğu dövrdə təhsilin qismən də olsa bərpası yoluxma sayının artması riskini bir daha gündəmə gətirir. Valideynlər bir tərəfdən onlayn dərslərdən narazı olsalar da, digər tərəfdən onların virusa yoluxmasından narahatlıq hissi keçirirlər.

**Bununla bağlı təhsil üzrə ekspert Nadir İsrafilov "Şərq"ə bildirib ki, hər şeyi zaman göstərəcək:**

"Fevralın 1-dən təhsilin qismən bərpası bu prosesin uzunmüddətli olmasına zəmanət vermir. Ola bilər ki, dərslər yenidən dayandırılsın. Mövcud vəziyyətdə situasiyanın mənfi, yaxud müsbətə doğru dəyişməsi bizim iradəmizdən asılı deyil. Hazırkı rəqəmlərdən də bunu açıq şəkildə görmək mümkündür. Təhsil naziri Emin Əmrullayev də brifinq zamanı qeyd etdi ki, belə məsələlər təkcə nazirliyin mövqeyindən asılı deyil. Nazirlər Kabinetinin bu məsələ ilə bağlı xüsusi qərarı mövcuddur və həmin qaydaları Nazirlər Kabinetinin yanında Fövqəladə komissiya müəyyən edir. Məhz buna görə də, təhsilin bərpasından sonra nələr ilə qarşılaşacağımız barədə konkret söz demək olduqca çətindir".

**Aytac Ali**

# "Rusiyadakı proseslərdə ABŞ-ın "əli" ola bilməz"



## Ərəstun Oruclu: "Bu iddiaların ortaya atılması yalnız diqqəti yayındırmaqdır"

Son günlər Rusiyadakı proseslər ciddi müzakirə predmetinə çevrilib. Yanvarın 23-dən başlanan etiraz aksiyaları ölkədə böyük iğtişaşlar yaradıb. Paytaxt Moskvada, Sankt-Peterburq, Yekaterinburq, Perm, Vladivostok, Novosibirsk, Yakutsk və bir çox başqa şəhərdə başlanan aksiyaların səbəbkarı müxalif siyasətçi Aleksey Navalnıdır.

Etirazçılar küçələrə axışaraq Navalnının azad edilməsini istəyiblər. Aksiya iştirakçılarının 3 mindən çoxunun həbs olunduğu bildirilir. Müxtəlif iddialara görə, A.Navalnı əslində Amerikanın yetişdirdiyi bir siyasətçidir. Yəni ABŞ Kremlin bölgədəki gücünü zəiflətmək üçün məhz Navalnıdan və ölkədəki çaxnaşmalardan istifadə edir.

*Tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu Rusiyadakı proseslərlə bağlı "Şərq"in suallarını cavablandırıb:*

**- Sizcə, şimal qonşumuzda cərəyan edən aksiyaların nəticəsi necə olacaq?**

- Təxminən 6-7 ay bundan öncə verdiyim müsahibələrin birində söyləmişdim ki, Rusiyada çox kəskin hakimiyyətdaxili mübarizə gedir. Bu gün də həmin fikirdəyəm. Rusiya rəsmiləri, Putin və ona yaxın çevrədən olan şəxslər haqqında zaman-zaman müəyyən kompromatlar üzə çıxdı. Bütün bunlar onu göstərir ki, Kremldə çox ciddi mübarizə gedir. İctimai şüura yeridilir ki, guya, Putində parkinson xəstəliyi tapılıb, bunun da perspektivi yoxdur. Lakin bu təsdiq olunmayıb. Rusiyada yaşananların başlıca səbəbi ölkə daxilindəki çəkişmələrdir. Bu, özünü müxtəlif forma və təzahürlərlə cəmiyyətdə gedən proseslərdə göstərir.

"İnsanlar 50 dərəcə şaxtada etiraza çıxırsa, bunun başqa səbəbi var. Amerika kəşfiyyatı gedib Rusiyada insanları qızışdırıb, onları ayağa qaldırdı ki, 50 dərəcə şaxta ola-ola küçələrə çıxıb Putinə etiraz edin?"

**- Bu olaylarda ABŞ-ın "əli" varmı?**

- Navalnının arxasında istər ABŞ və yaxud bütün dünya dursun, fərq etmir. Bir dövlət digərinin daxilində insanların kütləvi olaraq küçələrə çıxmasını təşkil edə bilməz. Özü də Rusiya kimi bir dövlətin daxilində... Orada azadlıqlar, hüquqlar məhduddur, demək olar ki, hamı nəzarətdədir. Düşünürəm ki, ABŞ-ın proseslərdə "əli"nin olduğuna dair iddiaların ortaya atılması yalnız diqqəti yayındırmaqdır. Əsas problem isə Rusiyadakı korrupsiyanın fəsadları olan sosial-iqtisadi durumla bağlıdır. Məsələn, insanlar 50 dərəcə şaxtada etiraza çıxırsa, bunun başqa səbəbi var. Amerika kəşfiyyatı gedib Rusiyada insanları qızışdırıb, onları ayağa qaldırdı ki, 50 dərəcə şaxta ola-ola küçələrə çıxıb Putinə etiraz edin? Bu, bir qədər absurd səslənir. Təbii ki, Qərbin müdaxiləsinin olmadığını demək istəmirəm. Şübhəsiz ki, Qərbdən müdaxilə var. Lakin baxır bu müdaxilə hansı səviyyədə və şəkildədir.

**- Proseslərdə Amerikanın müdaxiləsini ortaya atmaqda məqsəd nədir?**

- Xarici amili qabartmağın səbəblərindən biri də budur ki, ilk növbədə Putin və onun yaxın ətrafı diqqəti ölkə daxilindən yayındırmağa çalışırlar. Çünki münaqişə kəskinləşdikcə mübarizənin formaları da sərtləşəcək. Son nəticədə bu, Putinin hakimiyyəti itirməsi ilə nəticələnəcək.

Xarici ölkələrin Rusiyada hadisələrdən istifadə etməsinə gəlincə, bu, təbii bir prosesdir. Rusiya da başqa ölkələrin daxilində gedən belə proseslərdən istifadə edir. Bu, geosiyasi mübarizənin bir formasıdır.

**- Rusiyadakı iğtişaşların bir səbəbi kimi sosial-iqtisadi durumu qeyd etdiniz. Bəs Navalnının bu olanlarda payı nə qədərdir?**

- Rusiyada insanların yaşayışında və gündəlik həyatında məhdudiyyətlər, basqılar, maneələr olmasa, insanlar etiraz aksiyasına çıxmazlar. Bu qədər insanı etiraz aksiyasına çıxaran yeganə səbəb onların həyatındakı real çətinliklərdir. Etiraf edək ki, aksiyaların kütləvi şəkildə baş tutması Navalnı deyil. Çünki nə Navalnı, nə də onun şəbəkəsi elə bir gücdə deyil ki, bu qədər insan aksiyalara çıxsın. Yaxşı bilirik ki, insanlar adi bir çağırışla küçələrə axışmazlar. Deməli, baş verənlərin arxasında başqa amillər var. Bəlkə də elə məqamlar var ki, biz onu hələ bilmirik. Amma hər bir halda hakimiyyətdəki parçalanma amili də Rusiyadakı proseslərdə birmənalı rol oynayır.

**Söhbətləşdi: Yeganə Bayramova**

## "Ayıb olsun, Müdafiə Nazirliyinə"

### Aqil Abbas: "Dünyada bizi biabır ediblər"



**Günlərdir sosial şəbəkələrdə şəhid ailələrinin ürək dağlayan görüntüləri dolanır.**

Qaradağ rayonunda qrunt suları altında dəfn edilən 17 şəhidin yaxınları etiraz edirlər, övladlarının İkinci Fəxri Xiyabanda dəfn olunmasını istəyirlər. Məzarlığın ətrafında təmir və abadlıq üçün inşaat materialları töksələr də, valideynlər etiraz edir.

**"Şərq"lə həmsöhbət olan millət vəkili Elman Məmmədov şəhidlərimizin ən yüksək hörmətə, diqqətə layiq olduğunu düşünür:** "Onların ruhlarının rahat olması üçün gərək ailələrinin istəklərini diqqətdə saxlayaq. Bəlkə də o yer seçiləndə su basma olacağını bilməyiblər. Lakin təcili tədbir görülməlidir. Ailələrinin haqlı tələbləri yerinə yetirilməlidir. Şəhidlərimizin sayəsində qalib xalq, qalib dövlət kimi başmızı dik tutub, qürurla, sevinclə yaşayırıq. Torpaqlarımızı şəhadətə ucalan oğullarımız işğaldan azad ediblər, canlarını qurban veriblər. Şəhid məzarlarına, ailələrinə qarşı laqeydlik göstərmək olmaz".

**Deputat Aqil Abbas isə sözügedən mövzuya münasibətini bir-neçə cümlə ilə bildirdi:** "Ayıb olsun Müdafiə Nazirliyinə. İndiyə qədər məsələni yoluna qoya bilməyiblər. Dünyada bizi biabır ediblər".

**Samirə Ərəbova**



## Dəniz quldurlarının öldürdüyü Fərman İsmayılov Siyəzəndə dəfn olunub

**Qvineya körfəzində Türkiyə şirkətinə məxsus "Mozart" adlı gəmiyə dəniz quldurlarının hücumu nəticəsində öldürülən Azərbaycan vətəndaşı Fərman İsmayılovun cənazəsi doğulduğu Siyəzən rayonuna gətirilib.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, mərhum rayonun Qozağacı kənd qəbristanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, yanvarın 23-də Türkiyə şirkətinə məxsus "Mozart" adlı gəmiyə Nigeriya sahillərində dəniz quldurları tərəfindən hücum edilib.

Gəmidə olan 19 nəfərdən 15-i girov götürülüb, 1 nəfər isə öldürülüb. Öldürülən şəxs Siyəzən rayon sakini 45 yaşlı mühəndis Fərman İsmayılovdur.

# Rusiya İranla eyni dildə danışa bilir

"Amma Kreml istəsə belə, İranı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə daxil edə bilməz"

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Kreml Qarabağdakı vəziyyətlə bağlı İranla dialoqun dərinləşməsində maraqlıdır. S.Lavrov qeyd edib ki, təmsil etdikləri ölkələrin bölgədəki rolunu nəzərə alaraq, Fars körfəzində təhlükəsizlik, Əfqanıstan probleminin tənzimlənməsi kimi məsələlər üzrə müzakirələr hər iki tərəfə lazımdır.

Rusiya XİN başçısı söyləyib ki, əlbəttə, dialoq zamanı Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında razılaşmanın əldə olunmasından sonra bölgədə yaranmış vəziyyət də müzakirə oluna bilər: "Həmçinin Suriya, Yəmən və Fələstin, eləcə də digər Yaxın Şərq münaqişələri ətrafında iranlı həmkarlarımızla apardığımız fikir mübadiləsi bizim üçün böyük maraq doğurur".

Məlumdur ki, hərbi əməliyyatlar başa çatdıqdan sonra İran Qarabağda quruculuq işlərində iştirak etmək istəyir. Bəs, bu nə dərəcədə mümkündür və Lavrovun səsləndirdiyi fikirlər nəyə hesablanıb?



**Mövzu ətrafında fikirlərini "Şərq"lə bölüşən siyasi şərhçi Elçin Xalidbəyli bildirib ki, Rusiyanın İran ilə xüsusi münasibətləri mövcuddur.** Bu münasibətlər əsasən ümumi beynəlxalq rəqiblərə qarşı ortaq mövqedən çıxış etmək maraqları üzərində qurulub. Analitik vurğulayıb ki, Kreml bəzi bölgələrdə İranın iştirakına Rusiyanın mövqeyini gücləndirən önəmli faktorlardan biri kimi yanaşır: "Yaxın Şərqdə cərəyan edən proseslərə münasibətdə Kremlin haqlı olduğu ortaya çıxır. Xüsusilə də Suriya böhranında Rusiya-İran ortaqlığı qabarıq şəkildə sezilməkdədir.

Cənubi Qafqaza gəldikdə isə, İran bu regiona qonşu dövlətdir. Region dövlətləri ilə də müəyyən əlaqələr sisteminə malikdir. Yəni İranın istənilən halda, Cənubi Qafqazda cərəyan edən geopolitik proseslərdə iştirak edəcəyi istisna deyil. Xüsusilə də, regionda yaranmış yeni geopolitik şərtlər rəsmi Tehrana önəmli və cəlbedici perspektivlər vəd edir.

Əslində, cənub qonşumuzun bu regionda ümumi maraqlar çərçivəsində təmsil olunması Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təklif edilib. Və bu təklif Türkiyə, Azərbaycan, Rusiya, Gürcüstan, İran və Ermənistanın iştirakı ilə yeni geoiqtisadi layihələr üzrə ortaq tərəfdaşlıq zonasının qurulmasını nəzərdə tutur. Təşəbbüsün reallaşma ehtimalı kifayət qədər yüksəkdir".

E.Xalidbəylinin qənaətincə, Rusiya istəsə belə, İranı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə daxil edə bilməz: "Rusiya Xarici işlər naziri Sergey Lavrovun bu barədə mövqeyi elə çox şeyi dəyişməyə qadir deyil. Ən azından bu məsələ Rusiyadan daha çox Azərbaycan və Türkiyənin mövqeyindən birbaşa asılıdır. Üstəlik, İranın Cənubi Qafqazda geopolitik oyunçuya çevrilmək şanslarını ABŞ və Qərbin bu regiona yönəlik maraqları da məhdudlaşdırır. Yəni hazırda Rusiya Xarici işlər naziri Sergey Lavrov nə İrana, nə başqa hər hansı dövlətə təkbaşına heç nə vəd edə bilməz".

**Yeganə Bayramova**

## Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




Xəbər verdiyimiz kimi yanvarın 25-də Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin "AŞ PA Monitorinq prosedurunun 2020-ci il üzrə tərəqqi hesabatı" adlı qətnamə qəbul edilib. Qətnamədə Ermənistan və Azərbaycan arasında baş vermiş münaqişə və 44 günlük döyüşlər kontekstində müvafiq bəndlər yer alıb. Sənədin 5-ci bəndində vurğulanıb ki, komitə 27 sentyabr 2020-ci il tarixində Dağlıq Qarabağ bölgəsində baş verən hərbi döyüş əməliyyatları ilə bağlı hadisələri yaxından izləyir.

# Məğlubiyyət Ermənistanın alnına yazılıb

## Avropa Şurası haqlı tərəfin, güclü Azərbaycanın yanında dayandı

Həmçinin, cari məsələlər üzrə hər iki tərəfdən deputatların iştirakı ilə fikir mübadiləsi təşkil olunur. Bundan savayı, Ermənistan və Azərbaycan üzrə həmməruzəçilər münaqişənin sülh yolu ilə həllinə çağırışlar edir. Qətnamənin 11-ci bəndində isə aşağıdakı fikirlər yer alıb: "Münaqişə ilə əlaqədar olaraq, Assambleya bütün tərəfləri siyasi dialoqa mane olan iltihablı ritorikadan çəkinməyə çağırır. Ermənistanı və Azərbaycanı üçtərəfli bəyanatın humanitar məsələlərlə bağlı müddəalarını ən qısa müddətdə həyata keçirməyə səsləyir. Eyni zamanda bütün tərəfləri dərhal hərbi əsirlərin və cəsədlərin mübadiləsini həyata keçirməyə, mədəni irsə hörmət etməyə çağırır. Monitorinq Komitəsini parlament səviyyəsində sülh prosesi üçün əlverişli bir atmosferə töhfə vermək üçün yolları araşdırmağa dəvət edir. Assambleya münaqişə zamanı bütün tərəflərin humanitar və insan hüquqları qanunlarını pozduğuna dair məlumat və iddiaları, bəzi dini yerlərin və abidələrin deqradasiyasını, eləcə də xüsusi mülkiyyətin dağıdılması iddialarından ciddi narahatlığını da dilə gətirib. Qurum bu məlumatların tam araşdırılmasını və pozuntuların aradan qaldırılmasını və günahkarların mühakimə olunmasını gözlədiyini açıqlayıb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, hər il ənənəvi hazırlanan hesabatla əlaqədar qətnamə layihəsində monitorinq proseduruna və ya monitorinqdən sonrakı dialoqa cəlb edilmiş ölkələrdə baş vermiş əsas hadisələr qiymətləndirilir və müvafiq tövsiyələr verilir.

Xüsusi vurğulamaq lazımdır ki, AŞ PA-dakı Ermənistan nümayəndə heyətinin qətnamə layihəsinə əsassız düzəlişlər irəli sürmək cəhdləri uğursuzluqla nəticələnib. Ermənistan tərəfinin düzəlişləri həm Monitorinq Komitəsi, həm də Assambleyanın plenarı tərəfindən rədd edilib. Bundan başqa, Ermənistan nümayəndə heyəti sessiya çərçivəsində cari məsələlər üzrə debat proseduru əsasında "Avropa Beynəlxalq İnsan Hüquqları Standartlarının pozulması kimi Azərbaycan hakimiyyət orqanları tərəfindən erməni əsirlər və digər saxlanılan şəxslərin qaytarılmasının əsassız olaraq gecikdirilməsi" mövzusunda müzakirənin keçirilməsini istəyib. Bu xüsusda, Azərbaycan nümayəndə heyəti tərəfindən AŞ PA Prezidentinə məktub ünvanlanaraq məsələ üzrə mövqeyimiz onun diqqətinə çatdırılıb və belə bir debatın keçirilməsinin məqbul olmadığı vurğulanıb. Nəticə etibarı ilə, qurumun Bürosu tərəfindən bu mövzuda debatın keçirilməsi məqsədəuyğun hesab edilməyib. Göründüyü kimi ermənilər hər fürsətdə, ələ keçirdikləri hər tribunada Hadrut ətrafında Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən saxlanılan 62 nəfər erməni diversant qrupunu "hərbi əsir" kimi təqdim etməyə və Avropa İnsan Hüquqları Məhkəməsinə siyasi təzyiq etməyə cəhd göstərirlər. Bu dəfə də ermənilər "hərbi əsirlərlə" bağlı Monitorinq Komitəsinə 4 düzəliş təqdim ediblər. Lakin Komitənin mütləq əksəriyyəti "düzəlişləri" qəbul etməyib. Məlumdur ki, "düzəlişlər 2 plenar iclasda 10 üzv tərəfindən dəstək alarsa, səsə qoyula bilərdi. Ancaq ermənilər heç bir dəstək görməyib. Hətta Ermənistan nümayəndə heyətinin üzvü Ruben Rubinyan ermənilərin təqdim etdiyi düzəlişlərin əleyhinə çıxış edib.

Eyni zamanda vurğulamaq lazımdır ki, 25 yanvar tarixində Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç qış yarım-sessiyasında AŞ PA üzvləri qarşısında çıxışında təşkilatın mövqeyini bir daha ifadə edərək Ermənistan və Azərbaycan arasında imzalanmış 10 noyabr tarixli üçtərəfli bəyanatı alqışladıqlarını söyləyib. O, AŞ-nin səlahiyyətləri çərçivəsində hər iki ölkəyə post-konflikt dövründə dəstək verməyə hazır olduqlarını və bu məqsədlə tərəflərlə məsləhətləşmə apardıqlarını bildirib.

Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra nəinki öz ərazi bütövlüyünü bərpa etməyə nail oldu, həm də bütün regionda yeni siyasi reallıqlar yaratdı. Bu yeni reallıqla Cənubi Qafqazda siyasi təsir imkanları uğrunda mübarizə aparan qlobal güclər belə hesablaşmağa məcburdur. Ümumiyyətlə, Azərbaycan ötən müddətdə bütün beynəlxalq platformalarda torpaqlarının işğal olunması, Ermənistanın Azərbaycana qarşı təcavüzü, azərbaycanlıların etnik təmizləmə və soyqırıma məruz qalması həqiqətini qəbul etdirə bilmişdi. Bəzi ölkələr bu faktları öz siyasi maraqları kontekstində rəsmi şəkildə etiraf etməkdən çəkinsə də, ümumilikdə dünya ictimaiyyətində münaqişənin meydana çıxma səbəbləri barədə aydın təsəvvür formalaşmışdı. Şübhəsiz, bu, nəticə etibarilə Azərbaycan diplomatiyasının gücü sayəsində baş vermişdi. Prezident İlham Əliyevin irəli sürdüyü "hücum diplomatiyası" Azərbaycanın xarici siyasətinin yeni taktiki parametrlərini müəyyən etdi və qlobal güclərin rəsmi Bakıya yanaşması köklü dəyişikliyə məruz qaldı. Artıq Avropanın nüfuzlu qurumları əvvəlki kimi gözüyumulu ermənilərin uydurmalarına, əsassız iddialarına aldanmırlar. İndi bütün dövlətlərin hesablaşmaq məcburiyyətində olduğu güclü Azərbaycan var.

**Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə açıqlamasında bildirib ki, AŞ PA-ya üzv ölkələr arasında baş vermiş ən böyük hadisə 44 günlük müharibə və onun nəticələridir.** Ekspertin sözlərinə görə, belə mühüm bir hadisənin qətnamənin əsas mövzusu olması təbii və gözlənilən idi: "AŞ PA ilk növbədə tərəflərə ənənəvi çağırış etdi ki, münaqişəni yenidən alovlandıran açıqlamalardan, davranışlardan çəkinsinlər. Siyasi gərginliyin hərbi əməliyyatlara keçməməsi üçün bu cür çağırışlar normaldır. AŞ PA burada konkret hansısa tərəfi ittiham etmir, sadəcə tərəfsiz qalmaq üçün hər iki ölkəyə müraciət ünvanlayır. Ermənistan tərəfindən müxtəlif cəhdlər ediləcəyi əvvəlcədən ehtimal olunurdu. Erməni mediası Hadrutda ələ keçirilən diversantlarla bağlı məsələnin beynəlxalq platformalarda qaldırılacağının anonsunu verirdi. Məqsəd Azərbaycan əsgərlərinə qarşı təxribat törətmiş erməni terrorçularını "hərbi əsir" kimi təqdim edərək Azərbaycana təzyiq etmək idi. Ancaq düşmən istəyinə nail olmadı. Rəsmi Bakının erməni diversantlarla bağlı birmənalı mövqeyi Azərbaycan nümayəndəliyi tərəfindən AŞ PA-nın müvafiq komitələrinin diqqətinə çatdırıldı. Vurğulandı ki, müharibə 10 noyabr üçtərəfli sazişi ilə bitsə, erməni silahlıları mövqelərimizə hücum edərək əsgərlərimizi şəhid ediblər. Onlar mütləq Azərbaycan məhkəmələri qarşısında cavab verməli və cəzalarını almalıdır. Sevindirici haldır ki, haqlı və əsaslandırılmış mövqeyimiz Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olundu".

Ə.Şahidov etiraf edib ki, bu tipli qurumlar həmişə güclü tərəfin, təsir imkanlarına malik dairələrin yanında dayanıblar: "Nəzərə alaq ki, 44 günlük müharibə Avropa üçün gözlənilməz sürpriz oldu. Heç bir Qərb ölkəsi gözləmirdi ki, Azərbaycan qısa müddət ərzində, yəni AŞ PA-nın iki sessiyası arasında savaşa başlasın və qələbə ilə başa vursun. Ona görə də qurum güclü Azərbaycanın yanında dayanmağı daha məqsədəuyğun sayır. Artıq reallıqlar dəyişib, heç kim məğlub Ermənistana sahib çıxmaq fikrində deyil. Həm də nəzərə alaq ki, hazırda gündəmin əsas müzakirə mövzusu Orta Asiya-Xəzər dənizi və Azərbaycan üzərindən Avropaya gedəcək enerji xətləri və nəqliyyat dəhlizi ilə bağlıdır. Bundan sonra bütün Avropa dövlətləri Azərbaycanla münasibətləri korlamaq fikrindən uzaq olacaq. Hətta birmənalı Ermənistanın tərəfini tutan Fransa belə son günlər rəsmi Bakıya üz tutub. Fransa xarici işlər naziri Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb".

*Hüquq müdafiəçisi qeyd edib ki, ermənilərin təxribatları bundan sonra da davam edəcək:* "AŞ PA-nın sessiyaslarının həftə sonuna kimi keçirilməsi nəzərdə tutulur. Çox güman ki, ermənilər hər sessiyada müxtəlif iddialarla Azərbaycana təzyiq göstərməyə çalışacaqlar. Müharibə bitsə də, diplomatik sahədə mübarizəmiz uzun zaman sürəcək. Ermənilər usanıb özləri bu işdən vaz keçənə kimi absurd ambisiyaları uğrunda çalışacaqlar. Ancaq bildirmək istəyirəm ki, Azərbaycan tərəfini təmsil edən deputatların hazırlıq səviyyəsi yüksəkdir. Onlar istənilən erməni təxribatının qarşısını almaq iqtidarındadırlar. Hər halda qətiyyən arxayınlaşmaq olmaz. Balaca boşluq yaranan kimi ermənilər yenidən hərəkətə keçəcək".

**Millət vəkili Cavid Osmanov da "Şərq"ə bildirib ki, Prezident İlham Əliyev 44 günlük müharibə boyu dünyanın 26 aparıcı media qurumlarına verdiyi müsahibələrdə Azərbaycan həqiqətlərini və erməni yalanlarını olduğu kimi dünya ictimaiyyətinin diqqətinə çatdırdı.** Deputatın sözlərinə görə, ümumilikdə son 17 ildə cənab Prezident tərəfindən aparılan beynəlxalq siyasətin mərkəzində artıq həllini tapmış "Dağlıq Qarabağ münaqişəsi"nin çözümü xüsusi yerə malik olub: "Əslində dünyanın nüfuzlu təşkilatları yaxşı bilirdilər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edərək 30 ilə yaxın dövrdə işğalda saxlamışdı. Əksər təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması buna dəlalət edirdi. Amma reallıqlara rəğmən, münasibət fərqli idi, işğalçı Ermənistanla işğala məruz qalmış Azərbaycan arasında çox vaxt "bərabərlik" işarəsi qoyulurdu. Qərəzli və məqsədyönlü şəkildə təcavüzkar Yerevan hökumətinə dəstək verilirdi. 44 günlük Vətən müharibəsinin nəticəsi və ondan sonrakı proseslər Avropanın, bütövlükdə Qərbin Cənubi Qafqaza,ələlxüsus Azərbaycana baxışını müsbətə doğru dəyişdirdi. Qərb ölkələri, təşkilatlar rəsmi Bakının haqlı və qətiyyətli mövqeyi ilə barışmaq məcburiyyətində qaldılar. Xatırladım ki, Birinci Qarabağ müharibəsində torpaqlarımız işğal olunduğu halda yanlış təbliğatın nəticəsi olaraq Ermənistan deyil, məhz Azərbaycan "işğalçı" dövlət kimi tanınırdı. Bu cür faktlar düzgün xarici siyasətin, "hücum diplomatiyası"nın nə qədər önəmli amil olduğunu göstərir. Vətən müharibəsindən sonra Ermənistanı layiq olduğu adla çağıranların sayı çoxalıb. Beynəlxalq təşkilatların haqlı tərəfin yanında durması, hüquq çərçivəsində addımlar atması təqdirəlayiqdir. Bu, həmin qurumların öz imici üçün də müsbət dəyişiklikdir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Qərənfildən Xarıbülbülədək

*Soyuq bir qış günü, yanvarın 20-si. Ürəyimizi parça-parça edən gecə. Gül adlı bir qız vardı bu dünyada, onun həyat hekayəsini danışacam sizə. Bütün həyatını yox əlbəttə ki, sadəcə onun ağrılı və acılı bir günü haqda. Ürəyinə qılınc batıran, saçlarını ağardan, əllərini qurudan bir hadisədir, amma söyləməmək mümkünsüzdür.*



Bəlkə də indi düşünəcəksiniz ki, bu düşüncələrim sadəcə Gül adlı bir qız haqqındadır, amma irəlilədikcə anlayacaqsınız ki, hekayədə Güldən fərqli olaraq, digər bir gülün də tarixi əhəmiyyəti var. Kim bilərdi ki, bir gün axşam ailənlə sakit yemək yediyiniz zaman bir an içində həyatınız altı üstünə çevrilə bilər? Həyat elədir ki, həmişə özözümə deyirəm hər zaman, hər şey baş verə bilər və heç birimiz baş verənlərin nə vaxt olacağını bilə bilmərik. Həyat bir an içində ən xoşbəxt gündən ən bəd günə keçə bilər, arzuladığın hər şey puç ola bilər; tam tərsi də baş verə bilər. Əlbəttə ki, həyatın öz axarına düşə bilər. Sən saydığını say, gör fələk nə sayır.

...Bakıda Gül adlı qız valideynləri ilə yaşayırdı. Gülün atası, anası, bir axşam saat 7-də masa arxasında şam yeməyinə oturmuşdular, xəbərləri yox idi ki, bu onların birgə yığışdığı axırıncı gündür. Gül o zaman 10 yaşında idi. Heç 10 dəqiqə keçməmiş həyətdən çoxlu atəş səsləri eşidilməyə başladı, Gül bu səsi fişəng anlayıb sevinclə çölə çıxdı, həm də ona maraqlı idi, axı o eşidilən nə səslərdi axşam-axşam. Gülün valideynləri nə baş verdiyini artıq anlamışdılar, onlar da Gülün arxasınca qaçdılar.

Baş verən hadisəni dərk edərək bir anlıq Gülü itirəcəkləri qorxusu onları vahiməyə saldı.

Həyatın onlara bağışladığı ən dəyərli gülü itirməmək üçün küçələri gəzərək səsləyirdilər. Gül isə bayram arzusu ilə meydana tərəf qaçırdı. Onun əvəzinə isə bu qızcığaz yerə səpələnmiş gül kimi qana bürünmüş al qırmızı rəngdə insanlar gördü. Bir tərəfdən ana oğlunu axtarır, bir tərəfdən uşaq atasını çağırır, tankın səsi bir yandan gəlirdi. Əlbəttə ki, belə bir hadisə ilə rastlaşmaq çox çətindir, əsasən də 10 yaşlı qız üçün. Özünü itirmədən o, evə doğru qaçmağa başladı, ağlında ancaq valideynləri idi. Evə gəldikdə isə evin boş olduğunu gördü, artıq işıqlar da sönmüşdü. Masanın üstündə onların yeyilməmiş yemək və içəcəkləri hələ də qalmışdı. Gül başa düşdü ki, valideynləri hadisə baş verəndə onun dalınca getmişlər. O, həmin gecəni yatmadı, pəncərənin qırağına söykənərək qaçdığı yolu seyr edirdi, indi bu saat gələcəklər arzusu ilə üz-üzə qaldı. O, gecə onun üçün ən uzun, gözləntili və vahiməli bir gecə oldu.

Səhər çox qəribə açıldı. Gülün ürəyinə bir hiss dammışdı, amma o bilmirdi nə hissidir. Bu səhər digər səhərlərdən fərqli idi və Gül bunu çox gözəl anlayırdı. Gül həmən həyətə çıxdı, çox ağır mənzərə gördü, hətta dünəndən də çox ağır mənzərə ilə qarşılaşdı; qırmızı rəngdə qərənfillər hamısı yerə səpələnmişdi. Dünəndən dəyişən mənzərə o idi ki, dünən tökülən qanları idi, indi isə qərənfillər. Bilirsinizmi nəyə görə deyirəm ki, çox üzücü və ürəkqırıcı bir mənzərədir? Çünki bu həmin qərənfil, vaxtlar var idi ki, insanları sevindirmək üçün, toy bayramlarda verilərdi. Bir gecəyə onun taleyi də dəyişdi və insanların yaddaşında bu gül həmişə qara və kədər mənasını daşıdı. Aylar, illər keçdi, Gülün artıq 40 yaşı vardı. 2020-ci il noyabr ayı idi artıq. Həmin an çöldən qışqırıq səsləri eşidildi, Gül sanki 30 il əvvələ döndü. Gülün həmin səhnə gözünün qabağına gəldi. Onu vahimə bürüdü, valideynləri ilə şam yeməyi yadına düşdü. Həyəcanla həyətə qaçdıqda, həmin həyətdə 30 il sonra insanların üzündə sevinci gördü o, bu səslər bu dəfə atəş səsi deyildi, fişəng səsi idi. Bu, zəfər səsi idi. O boyda axının içində hamı bir-birinə hörmət və ehtiramla yanaşırdı.

Qarabağın alınması münasibətini insanlar qeyd edirdilər, illərdi insanlar bu qədər gözlənti ilə yaşamaqdan yorulmuşdular.

Biz azərbaycanlı kimi, canından keçən Polad, Mübariz, Əliyar, İlqar, Cəbrayıl, Xudayar, Albert, Çingiz, Yusif, Allahverdi, Mehmanlar kimi cəsarətli oğullar vətənə görə canlarını qoyub, ən yüksək zirvəyə ucaldılar ki, indi gələcək nəsil sakit, azad, asudə yaşaya bilsin. Onları unutmaq, Azərbaycana və özünə hörmət etməmək deməkdir. Xalqının tarixini hamı bir nəfər kimi bilməlidir. Qərənfilə üzülürük hamımız, baş vermiş hadisələrə görə onlar ömürlük bizim yaddaşımızda qan yaddaşımız kimi qalacaqlar. Halbuki, keçmişdə olmuşlar, heç bir zaman dəyişməsə də, 2020-ci ildə daha bir gülün də taleyi dəyişdi, amma bu dəfə xoş günə görə.

Qarabağ işğal olunandan xarıbülbülün gözü Azərbaycan torpaqlarını axtarırdı, çünki ermənilər Qarabağı dağıtdı, orda bir dənə də olsun abidə qoymadılar, çiçək, ürək açan mənzərə saxlamadılar. Halbuki, yurd, torpaq elədir ki, nə başqası, nə də ki, erməni onun kökünü kəsə bilməz. 30 il sonra kökümüzün dərin qatlarından çıxan şəhidlərimizin ruhu xarıbülbülə hopub, cücərib, çiçəkləndirəcək... Xarıbülbül gövdəsindən çıxan bir neçə yarpaqlarla tarix yazdı. Hər bir yarpağı, cəsarətli əsgərlərimizin keçdiyi şərəf yolu aydın şəkildə göstərir. Xarıbülbül əvvəllər Şuşada və digər bölgələrimizdə yetişən bitki idi, amma indi isə nəinki Qarabağın simvolu, hətta qələbə simvoluna çevrildi. Qərənfil ilə başlayan matəm, xarıbülbüllə zəfər çaldı.

**Anaxanım Nəsibli,**
**İstanbul "Koç" Universitetinin**
**III kurs tələbəsi**

## Onlayn təhsil müstəqil formada stimullaşdırıla bilərmi?

Şahlar Əsgərov: "Təhsil müəssisələrinə gedə bilməyən gənclər bu formatdan yararlanar"



**Koronavirus infeksiyasının qarşısının alınması məqsədilə uzun müddətdir tədris prosesi onlayn sistemdə davam edir.**

Artıq həm müəllimlər, həm də tələbələr və şagirdlər bu duruma alışıb. Müəyyən internet problemləri olsa da, onlayn təhsilin bazası qurulub. Müxtəlif proqramlarda -" Microsoft Teams", "Zoom" və sair platformalarda tələbələr, şagirdlər təhsil alırlar.

*Bəs eynilə əyani və qiyabi təhsil sistemində olduğu kimi onlayn təhsil də stimullaşdırıla bilərmi?*

**Suallarımızı cavablandıran professor Şahlar Əsgərov deyib ki, onlayn təhsilin bazası ölkəmizdə təhsil sferasını əhatə etmir:** "Çünki regionlarda internet və sair çatışmazlıqlar mövcuddur. İnternetin həm sürəti, həm də qiyməti məsələsi də problemdir. Pandemiya dövründən sonra da onlayn təhsilin saxlanılması qismən mümkündür.

Bu dönəmdə çox güman ki, həm əyani, həm də onlayn təhsildən istifadə ediləcək. Qiyabi, əyani və onlayn təhsil formaları alternativ deyil, yəqin ki, bir-birini tamamlayar.

Həmçinin universitetə, təhsil müəssisələrinə gedə bilməyən gənclər bu formatdan yararlanar".

**Samirə Ərəbova**

# "Ölümdən qorxmuram"

## Ağır xəstəlik keçirən Rəşid Mahmudov ayağa qalxıb, evində müalicə alır



"İnsanlar çalışmalıdır ki, normal, dürüst yaşasınlar. Övladlarına halal və haramı başa salsınlar"

*Bir neçə gün öncə görkəmli ziyalımız Rəşid Mahmudovun koronavirusa yoluxması xəbəri hər evi dolaşdı. Onu sevən uşaqlı-böyüklü hər kəs bu xəbəri böyük məyusluq hissi və kədərlə qarşıladılar.*

Qeyd edək ki, verdiyi COVID-19 testinin nəticəsi pozitiv çıxan ictimai xadim yoluxmanın ilk günlərində evdə müalicə olunsa da daha sonra vəziyyəti ağırlaşıb və Gömrük Xəstəxanasına yerləşdirilib.

**Bu gün doktorun səhhəti ilə yenidən maraqlandıq. "Şərq"in telefonunu elə özü açan Rəşid müəllim vəziyyəti barədə ətraflı məlumat verdi: "Koronavirusa yoluxmuşdum, 13-14 gün müddətində xəstəxanada yatdım.** İndi isə xəstəxanadan çıxmışam. Özümü çox yaxşı hiss edirəm. Şükür Allaha, həkimlərimiz məni doğrudan da ölümcül vəziyyətdən xilas etdilər. Gömrük Xəstəxanasının həkimlərinə öz təşəkkürümü bildirirəm.

Öz aramızdır, oradakı xəstəxana çox mükəmməl, bugünkü tələbata uyğun olaraq Avropa stilində qurulub. Oranın baş həkimi, müavini də mənim tələbəm olub. Çox gözəl insanlardırlar və orada gözəl bir tibbi-sistem qurublar. Doğrudan da fəxr edirəm ki, bizim belə həkimlərimiz var.

Həkimlərimiz tək mənim yox, çox adamın ölümünün qarşısını aldılar. Həqiqəti, gözümlə gördüyümü deyirəm.

İndi evdəyəm, yaxşıyam, kefim kökdür. Fevralın 6-na qədər həkimlər evdən çıxmağa icazə vermir".

*Biz də öz növbəmizdə Rəşid müəllim üçün səmimi arzularımızı çatdırdıq. Həmçinin, qeyd etdik ki, xalq öz ziyalısının sağlamlığını istəyir, onu yenə ayaq üstündə görmək üçün səbirsizlənir. Doktor da öz növbəsində təşəkkür etdi və əlavə olaraq bizə bildirdi ki, dəyərli xalqımız bunu da bilsin ki, mən ölümdən qorxmuram, ona yuxarıdan aşağı baxıram:* "Allaha qurban olum, ölümdən qorxmuram və bunu qəbul edirəm. İnsanlarımız bunu da bilməlidirlər. Ölümün özü də gözəl bir şeydir. Amma insanlar çalışmalıdır ki, normal, dürüst yaşasınlar. Övladlarına halal və haramı başa salsınlar. Düzgün insan yetişdirsinlər.

Türk olmaq lazımdır, oğul! Türk! Türk! Varını yox, nəyi varsa insanlarla bölüşdürəndir türk.

Türk həmişə düz və dürüst danışandır. Hegel deyir ki, bu dünyanı idarə etmək üçün vəzifə başına mütləq bir türk qoyun. O, dünyanı ədalətlə, haqla idarə edəcək. Niyə? Çünki türklər həqiqətin özüdürlər, qanuna tabedirlər. Amma qeyrilərinin heç biri buna əməl etmirlər. Ona görə deyirəm ki, türk olmaq çox çətindir və onlardan da çox qorxurlar. Ona görə ki, türk hər zaman canından olsa da həqiqəti deyir. Bax, insanlara bunu aşılamaq lazımdır. Əminəm ki, sizin qəzetiniz də məhz bunun uğrunda mübarizə aparır".

**Ağarza Elçinoğlu**

# “İnamsızlıq çox ağır bəladır”

## “İnsanların vaksinasiya ilə bağlı sadə bir şeyi anlamaması təəccüb doğurur”

Yanvarın 18-də Azərbaycanda COVID-19-a qarşı vaksinasiya prosesinə səhiyyə işçilərinin peyvəndlənməsi ilə start verilib. Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri peyvənd olunub. Lakin bunlara baxmayaraq insanlar arasında vaksinasiyaya qarşı inamsızlıq var. Mütəxəssislər isə fərqli fikirdədirlər.



Həkim: "Guya ki, Bil Geyts timsalında qara qüvvələr istəsələr, o yeritmək istədikləri "qorxulu" maddələri, gündəlik yeyəcəklərin və içəcəklərin içində insanların bədəninə yeridə bilməzlər?"

**Həkim-nevroloq Pərviz Axundov ”Şərq”ə açıqlamasında bildirib ki, vaksinə münasibət hər bir ölkədə fərqlidir. Onun sözlərinə görə, Almaniyada bəzi xidmət sektorlarında vaksinasiya edilməyənlər işdən azad edilirlər:** ”Təbii ki, bu tendensiya digər ölkələrə də keçəcək. Qərbdə də vaksinasiyaya qarşı gedən kütlə var. İnsanların sadə bir şeyi anlamaqda çətinlik çəkməsi təəccüb doğurur. Vaksinlərin məhz iynə formasında olması şərtidir. Damcı formasında da vaksinlər olur, poliomielit kimi də. İndi bu konspirasiya nəzəriyyələrinin tərəfdarlarının özlərinə düşmən bildiyi Bil Geyts timsalında qara qüvvələr istəsələr, o yeritmək istədikləri ”qorxulu” maddələri, gündəlik yeyəcəklərin və içəcəklərin içində insanların bədəninə yeridə bilməzlər? Məsələn, ”HELL” içəcəyinin içərisinə. Gərək ki, ancaq hansısa vaksinin içinə qatılsın həmin ”təhlükəli” maddələr? Bir məsələni də qeyd edim ki, Çində insanlar özləri könüllü növbələrə yazılıblar və orada kütləvi vaksinasiya prosesi getməkdədir. İnamsızlıq çox ağır bəladır. Bütün dünyada bu tendensiya var. Şayiələr, psixoloji problemlər və elmsizliklə əlaqədardır. Şərti olaraq vaksindən imtina edənləri 3 qrupa bölmək olar. Birinci qrupa daxil olanlar məmurlara, səhiyyə sisteminə inanmayanlardır. Onlar düşünürlər ki, vaksin siyasi və iqtisadi bir oyundur. İkinci qrupa şübhəli yanaşanlardır ki, onlar müxtəlif rəsmilərin açıqlamalarına baxırlar və özləri buna uyğun qərar verirlər. Üçüncü qrup insanlar həyəcan pozulması olan insanlardır ki, onlar sövdələşmələrdən, çipləşmə və izlənilmədən qorxurlar və bütün növ vaksinlərə qarşıdılar. Antivaksinoloqların uydurduqları əfsanələr ona görə uğurlu olur ki, onlar uydurmaları insanlara onların başa düşə biləcəyi, sadə dildə deyirlər. Halbuki, bunların heç bir elmi əsası yoxdur”.

Həkim əlavə edib ki, sosial şəbəkələrdə bir il əvvəl ”virus yoxdur, oyundur” deyənlər, indi də vaksinasiyaya qarşı təbliğat aparmağı özünə ”peşə” seçib: ”Nəzərə alaq ki, zamanında məlum problemə qarşı ciddi yanaşma, qorunma tədbirləri ilə alovlanmaların qarşısı alına bilərdi, amma olmadı. İndi də vaksinasiya əleyhinə təbliğatla yeni təhlükəli yola insanları sürükləmək istəyirlər. 1 ilə yaxındır ki, karantinin yumşaldılmasını, iş yerlərinin açılmasını tələb edənlər, vaksinasiyanın nə olduğunu anlamadan buna qarşı olurlar. Amma unutmaq lazım deyil ki, bu gedişlə yeni alovlanmalar və yeni ”sərt karantinlər” qaçılmaz olacaq. Hazırda ən uyğun çıxış yolu vaksinasiyadır. Nəzərə almaq lazımdır ki, vaksinasiyanın kütləviliyi şərtdir, əks halda yeni mutasiyaların hesabına vaksinin effektivliyinin aşağı düşməsi gözləniləndir. Britaniyada artıq apteklərdə belə vaksinasiyanın aparılması təşkil edilir ki, qısa müddətdə böyük kütlə vaksinasiya edilsin”.

**Koronavirusun tarixə qovuşmağına az qaldığını vurğulayan həkim anestezioloq-reanimatoloq Şahin Məmmədov ”Şərq”ə açıqlamasında deyib ki, alınan vaksinlər rəsmi olaraq 50 faiz effektivlidir:** ”Təbii ki, ölkədən-ölkəyə, insandan-insana bu rəqəm fərqlidir. Bəzi millətlər ”Covid-19”a daha həssas, bəziləri nisbətən davamlı görünür. Bizdə ümumən rəqəmlər pis deyil. Azərbaycan ərazisi vərəmin endemik zonası sayıldığına görə, əhali ”bsj” vaksinasiyası olunub. ”Bsj” vaksinasiyası olan insanlarda təkcə vərəmə qarşı yox, ümumi immunitet güclənir. Bizim aldığımız vaksin yüngül xəstə sayından daha çox ağır xəstə sayını kəskin azaldıb. Hesab edirəm ki, bir il ərzində koronavirusun sayının azalmasının şahidi olacağıq”.

**”Covid 19” əleyhinə vaksinasiyanın bu infeksiyadan qurtuluşun yeganə yolu olduğunu qeyd edən professor Musa Qəniyev deyib ki, o, zəruri və mütləqdir:** ”Vaksinasiya barədə insanlar arasında yenə də vahid fikir birliyi yoxdur. Bizim ölkəmizdə ”Sinovac” şirkətinin ”CoronaVac” peyvəndindən istifadə olunur. Bu peyvənd klassik yolla, yəni inaktivləşdirilmiş virus kulturasından alınır. Odur ki, enzim patalogiyası olan məhdud sayda insanlar nəzərə alınmasa, heç bir ciddi və təcili müdaxilə tələb edən əlavə effektlərə və ya qeyri-spesifik təsirlərə malik ola bilməz. Digər tərəfdən, bildirmək istəyirəm ki, bu peyvəndi istər günümüzə qədər ”COVİD-19”-a yoluxmayan, istərsə də zaman müddəti nəzərə alınmadan, onun istənilən klinik formasını keçirmiş şəxslərə vurmaq olar”.

**Aynurə Pənahqızı**

# Əyani tədris məcburi deyil

## Valideyn ehtiyat edirsə, uşağını məktəbə göndərməyə bilər

Bir neçə gündən sonra orta məktəblərdə əyani tədris mərhələli şəkildə bərpa olunacaq. İlkin mərhələdə ibtidai siniflər əyani tədrisə başlayacaqlar. Bununla bağlı Təhsil Nazirliyi müvafiq qərar verib. Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə s?o?bəsinin mu?diri Vəfa Yaqublu bildirib ki, fevralın 1-dən tədris qismən bərpa edildikdən sonra sinif üzrə yoluxma halı baş verərsə, bu halda həmin sinif distant təhsil formasına keçəcək.

Onun sözlərinə görə, yoluxma ilə bağlı görüləcək tədbir onun miqyasından asılıdır: ”Bununla bağlı normativlər var. Sinif üzrə yoluxma olduqda sinif, məktəb üzrə yoluxma zamanı məktəb distant formaya keçəcək”.

Siniflərdə şagird sıxlığı az olsa belə, Bakı, Sumqayıt və Abşeronda fevralın 1-dən ibtidai sinif şagirdləri üçün dərslər həftədə 3 dəfə olacaq.

Bölgələrdə siniflərdə şagird sayı çoxdursa, o halda sinif iki qrupa bölünəcək. Şagirdlərinin sayı hər partada bir nəfərin oturmasına imkan verirsə, həmin siniflər məktəbə 5 dəfə gedə biləcəklər.

V.Yaqublu qeyd edib ki, məktəblərdə qaydalara əməledilmə vəziyyətinin öyrənilməsi üçün daimi monitorinq aparılacaq.

*Uşaqların əyani dərslərdə iştirakının təşkili nədən asılı olacaq? Uşaqlar buna necə hazırlanmalıdır?* **Pediatr Vaqif Qarayev ”Şərq”ə açıqlamasında əyani dərslərə başlamanın açılmaz olduğunu, lakin yoluxma riskinin minimuma endirilməsi üçün bütün lazımi tədbirlərin icrasının zəruriliyini diqqətə çatdırdı:**



- Çalışmalıyıq ki, yoluxma sayı artmasın. Əyani tədris məcburi deyil. Valideyn övladını məktəbə göndərməkdən ehtiyat edirsə, göndərməyə bilər. Hər uşaq bir evdən gəlir və heç kim bilmir ki, o evdə hansı vəziyyətdir. Yoluxma faktı olubmu, varmı. Koronavirus pandemiyası dünyanın başını qatdı, uşaqların digər infeksion xəstəliklərə qarşı məcburi peyvəndlənməsi arxa plana keçdi. Məxmərək, qızılca, su çiçəyi, göy öskürək kimi infeksion xəstəliklərə qarşı peyvəndləmə vacibdir, çünki adıçəkilən infeksiyalar ayrı-ayrı xəstəliklər yaradır. Bu saat su çiçəyinə yoluxmuş uşaqlar var. Amma valideynlərdən hazırkı dönəmdə peyvəndləməni tələb etmək də olmur. Bu hal, gələcək üçün ağır fəsadlar yaradacaq. Uşaq kollektivə gedirsə, əlində mütləq arayış olmalıdır, peyvəndləmə ilə bağlı. Çünki kollektivdə epidemiyaya səbəb ola bilər. Pnevmokokk bildiyimiz pnevmaniya və meningit kimi kəskin infeksion xəstəlik yaradan bakteriyadır. Ona qarşı peyvənd aparılmalıdır. Eləcə də adıçəkilən digər infeksiyalara qarşı. Peyvənd qorxulu xəstəliklərdən qorunmaq üçündür. Bu peyvəndlərin edilməsi uşaqlarda infeksion xəstəliklərə qarşı immunitetin yaranması və kollektivdə yoluxmaya səbəb olmamaq üçün vacibdir.

**V.Qarayev uşaqların dərs və tənəffüs zamanı tibbi maskalardan istifadə edib-etməməsi məsələsində hələ də qəti rəylərin olmadığını bildirdi:**

- Problem bundadır ki, pandemiya başlayandan tibbi maskalarla bağlı bir-birini təkzib edən fikirlər səsləndi. Uşaqlar dərs zamanı tibbi maskadan istifadə etsinmi, etməsinmi, bu suala belə cavab verə bilərəm ki, tibbi maskalardan istifadə uşaqlar üçün arzuolunmazdı. Uşaq böyüyən bir orqanizmdi, daim hərəkətdədir, atlanıb-düşəcək, qaçacaq... Uşaq tibbi maska taxacaqsa, əlbəttə, beyinə lazımi miqdarda oksigen ötürülməsində çətinlik yaranacaq. Sosial məsafə necə qorunacaq? Nə qədər deyilsə də, tələb qoyulsa da, təkcə bir sinifdə 40-45 şagird varsa, onları nəzarətdə saxlaya bilmək absurddur. Uşaqları 10-15 nəfərlik siniflərə bölmək də mümkün olmayacaq, çünki bu qədər sinif yoxdur. Bütün bunları nəzərə alanda, inanmıram ki, nəzarət və qaydalara riayət etmək alınsın. Amma nə edək? Tibbi baxımdan uşaq üçün məktəb vacibdir, uşaq kollektivdə olmalıdır. Onsuz da neçə aydır evdədirlər, psixoloji gərginlik içindədirlər. Uşaqlar məktəbə getməlidir, bu məlumdur. Amma necə, maskalı, maskasız, bunu deyə bilmirəm. Uşaqlar yoluxmur, bunu qəbul etdik, ancaq uşaq daşıyıcı ola bilər və valideynini yoluxdurar. Bu da var. Yenə də müəllimlər, məktəb kollektivi uşaqların sıx toplaşmasının, valideynlərin məktəb giirşlərində sıxlıq yaratmasının qarşısını alsınlar. Müəllimlər nəzarət etsinlər ki, şagirdlər əllərini tez-tez dezinfeksiya etsin, tənəffüsdə əllərini yusunlar. Şagirdlər mümkün qədər biri-birindən aralı əyləşsin. Bir-birinin əşyalarından istifadə etməsinlər. Bunun üçün məktəblərdə şərait olmalıdır, məktəb vacib ləvazimatlarla, yuyucu maddələrlə, dezinfeksiyaedici məhlullarla təmin edilməlidir. Nəzarət güclü aparılmalıdır.

**Məlahət Rzayeva**

## Daha bir mövsüm oynamaq istəyir

“Yuventus” Buffonla müqaviləni yeniləyir



**İtaliyanın ”Yuventus” klubu oyunçusu Canluici Buffonla yeni müqavilə imzalayacaq.**

”Report” xəbər verir ki, bu barədə italiyalı jurnalist Tankredi Palmyeri özünün tvitter səhifəsində yazıb. Onun sözlərinə görə, yanvarın 28-də 43 yaşı tamam olacaq qolkiper daha bir mövsüm oynamaq istəyir. Buffonun sözləşməsinin müddəti 2022-ci ilin yayınadək uzadılarsa, o, A Seriyasında ən yaşlı oyunçu kimi tarixə düşmüş ”Latsio”nin sabiq qolkiperi Marko Ballottanın (44 yaş 1 ay 8 gün) rekordunu yeniləyəcək. Çünki Buffon 2021/2022 mövsümünün sonunda 44 yaş 4 aylığında olacaq.

*Qeyd edək ki, cari mövsüm ”Yuventus”un heyətində 6 oyun keçirən Canluici Buffon 4 qol buraxıb.*

## Rus futbolçu qətlə yetirildi

22 yaşlı yarımmüdafiəçi ürək nahiyyəsindən bıçaqlanıb



**Rusiyanın ”İrtış” klubunun sabiq futbolçusu Yeqor Drobış qətlə yetirilib.**

”LİFE SHOT” xəbər verir ki, 22 yaşlı yarımmüdafiəçi ürək nahiyyəsindən bıçaqlanaraq öldürülüb.

Hadisə Omsk şəhərində baş verib. İddiaya görə, gecə saatlarında dostu ilə sərxoş halda marketdən qayıdan oyunçuya naməlum şəxslər hücum ediblər. Nəticədə Drobış hadisə yerində dünyasını dəyişib. Dostu isə reanimasiyaya yerləşdirilib. Polis cinayətkarları axtarır.

*Qeyd edək ki, Yeqor Drobış ”İrtış”ın gənclər komandasının aparıcı futbolçularından olub.*

## Messi ailəlikcə fransız dilini öyrənir

Bu addımı onun PSJ-yə mümkün keçidi məsələsini gündəmə gətirib



**”Barselona”nın futbolçusu Lionel Messi ailəsi ilə birlikdə fransız dilini öyrənməyə başlayıb.**

Bu addımı argentinalı hücumçunun PSJ-yə mümkün keçidi məsələsini gündəmə gətirib.

İddiaya görə, 34 yaşlı forvard Parisə köçəcəyi üçün bu dili öyrənir.

*Qeyd edək ki, Lionel Messinin Barcelona ilə müqaviləsi cari mövsümün sonunda başa çatacaq.*



## Bakı siyahıda qalır

UEFA Avropa çempionatının keçiriləcəyi şəhərləri dəyişməyəcək

**UEFA bu il keçiriləcək futbol üzrə Avropa çempionatını planlaşdırıldığı kimi 12 şəhərdə keçirmək niyyətindədir.**

Trend bildirir ki, koronavirus pandemiyası ilə əlaqədar turnirin bir ölkədə təşkil olunması və ya ümumiyyətlə keçirilməməsi məsələsi müzakirə olunmur.

UEFA təşkilatçı ölkələrlə daim təmasda olduğunu və həmin şəhərlərin yarışları qəbul etməyə hazır olduqlarını bildirib.

Qeyd olunur ki, koronavirusun yayılma vəziyyətindən asılı olaraq oyunların tamaşaçılarla və ya boş triubunalarla keçirilməsi qərarlaşdırılacaq.

Avropa çempionatı iyunun 11-dən iyulun 11-dək Avropanın 12 şəhərində, o cümlədən Bakıda keçiriləcək.

Bakıda qrup mərhələsinin 3 matçı və dörddə bir final qarşılaşması baş tutacaq.



## Anlaşma rəsmiləşdi

### Özil, 5 illik müqaviləyə qol çəkib

**”Fənərbaxça” yeni transferi Məsut Özili ictimaiyyətə təqdim edib.**

32 yaşlı yarımmüdafiəçi media önünə çıxıb. 150-ə yaxın yerli və xarici jurnalistin iştirak etdiyi təqdimat mərasiminə klubun prezidenti Ali Koç, Özilin həyat yoldaşı Əminə Gülşə və qızı da qatılıb. Türk əsilli almaniyalı futbolçu tədbirdə 3,5 illik müqaviləyə qol çəkib.

*Qeyd edək ki, son olaraq ”Arsenal”da çıxış edən Məsut Özilin ”Fənərbaxça”da illik maaşı 5 milyon avrodur.*

## Kaqava PAOK-a keçib

O, karyerasını Yunanıstanda davam etdirəcək



**Son olaraq İspaniyanın ”Saraqosa” klubunda çıxış edən Şindzi Kaqava karyerasını Yunanıstanda davam etdirəcək.**

Yarponiyalı yarımmüdafiəçi PAOK-a keçib. Bu barədə Saloniki təmsilçisinin mətbuat xidməti məlumat yayıb. 30 yaşlı futbolçu ilə 1,5 illik müqavilə imzalanıb.

*Qeyd edək ki, karyerası ərzində Almaniyada ”Borussiya” (Dortmund), İngiltərədə ”Mançester Yunayted”, Türkiyədə ”Beşiktaş” kimi klublarda da çıxış edən Kaqava, oktyabr ayından azad agent idi. O, Yaponiya millisində 97 oyunda 31 qol vurub.*

## Edeqorun "Arsenal"a keçidi rəsmiləşib

23 yaşlı yarımmüdafiəçi mövsümün sonuna qədər icarə əsasında oynayacaq




**”Real”ın futbolçusu Martin Edeqorun ”Arsenal”a keçidi rəsmiləşib.**

Bu barədə London klubunun rəsmi saytı məlumat yayıb. Norveç millisinin də üzvü olan 23 yaşlı yarımmüdafiəçi mövsümün sonuna qədər icarə əsasında ”topçular”da çıxış edəcək.

*Qeyd edək ki, Martin Edeqor ötən mövsümü icarə əsasında İspaniyanın ”Real Sosyedad” klubunda keçirib.*

## Flik "Bavariya"dan ayrılır



**”Bavariya”nın baş məşqçisi Hans Flikl mövsümün sonunda vəzifəsindən ayrılacaq.**

Bu barədə ”Bild” nəşri məlumat yayıb. 55 yaşlı mütəxəssisin İdarə Heyətinin sədri Karl-Haynts Rummeniggenin klubdan getməsi səbəbindən komandanı tərk edəcəyi bildirilib.

Baş məşqçinin Hasan Salihamiciçlə qarşıdurmada olduğu da qeyd olunub. Flikin Almaniya yığmasında Yoahim Lövün əvəzləyəcəyi gözlənilir.

*Qeyd edək ki, Hans Flik 2019-cu ildən ”Bavariya”nı çalışdırır. Onun klubla sözləşməsi 2023-cü ilin yayına qədərdir.*

## İki oyunçu kəllə-kəlləyə gəlib

Qalmaqal söyüşə görə olub



**İtaliya kubokunun 1/4 final mərhələsinin ”İnter” - ”Milan” matçında (2:1) Romelu Lukaku ilə Zlatan İbrahimoviç arasındakı qalmaqalın səbəbi bəlli olub.**

İlk hissəsin sonlarında ”Milan”ın müdafiəçisi Alessio Romanyoli Romelu Lukakuya qarşı kobud oynayıb. Lukaku ilə Romanyoli arasındakı mübahisəyə İbrahimoviç də qoşulub. Nəticədə bu iki oyunçu kəllə-kəlləyə gəlib, lakin insident əlbəyəxa davaya çevrilməyib. ”Sportmediaset” saytı bildirib ki, Zlatan Lukanın ünvanına təhqiramiz ifadə işlədib: Cavabında Lukaku İbrahimoviçi ”fahişə oğlu” adlandırıb.

*Qeyd edək ki, baş hakim hər iki oyunçuya sarı vərəqə göstərib. 58-ci dəqiqədə isə İbrahimoviç kobud oyuna görə ikinci sarı vərəqəni alaraq, meydandan qovulub.*

## Klub Ramos və Lukasla razılığa gələ bilmir

“Real”ın 2 futbolçusu müqavilə təklifini geri çevirdi



**Madrid ”Real”ı müdafiəçisi Serxio Ramos və yarımmüdafiəçisi Lukas Vaskeslə yeni müqavilə ilə bağlı razılığa gələ bilmir.**

”Marca” xəbər verir ki, hər iki oyunçu Madrid klubunun bu yaxınlarda etdiyi son təklifi də geri çevirib. Danışıqların davam etdirildiyini açıqlayan mənbə sözügedən oyunçuların şərtlərin yaxşılaşdırılmasını istədiklərini vurğulayıb və bu gedişlə, klubun hər iki futbolçunu itirəcəyini qabardıb.

*Qeyd edək ki, Ramos və Vaskesin İspaniya nəhəngi ilə olan müqavilələrinin müddəti bu yay bitəcək.*

## “Barselona” futbolçuların maaşlarını ödəmir



**“Barselona” futbolçuların dekabr ayı üçün maaşlarını ödəməyib.**

Bu barədə COPE nəşri məlumat yayıb.

Qeyd edək ki, ”Barselona” bir müddət əvvəl 1,2 milyard avro borcunun olduğunu açıqlayıb.

Kataloniyalılar 2019/2020 mövsümünü 488 milyon avro borcla başa vurublar və klub öz kreditorları ilə bu ödənişlərə möhlət verilməsi haqqında danışıqlar aparır. Klub koronavirus pandemiyasının büdcəyə təsir göstərdiyini bildirib.

# Valideynlər, övladlarınızı "TikTok"dan qoruyun!




İtaliyada "TikTok"un təhlükəli oyununda iştirak edən 10 yaşlı qız ölüb. Uşaq "Blekaut" adlı dözümlülük yarışı yerinə yetirərkən boğularaq həyatını itirib. Yarışın şərtlərinə əsasən iştirakçılar video yayımlandığı müddətdə boyunlarını kəmərlə sıxmalı və nəfəslərini tutmalı imiş.

## Lalə Mehralı: "Onları bizdən başqa kimsə qoruya bilməz"

Nəticədə balaca qız həlak olub, onu hamam otağında yanında telefonla 5 yaşlı bacısı tapıb.

Bu səbəbdəndir ki, dəfələrlə maarifləndirici yazılar yazıb, valideynləri uşaqları "TikTok"dan qorumağa çağırırıq. Lakin hələ də həmin sosial şəbəkə platformasına uşaqların, gənclərin axını müşahidə olunur.

**Məsələni "Şərq"ə şərh edən jurnalist-sosioloq Lalə Mehralı valideynlərin mütəxəssislərin tövsiyələrinə məhəl qoymadıqlarını söyləyib:**

"Peşəkarlar, övladınızı həmin platformadan qoruyun, təhlükəlidir, uşaqların tərbiyəsinə, mənəviyyatına zərərlidir" deyirlər. Valideynlər üçün isə bunların önəmi yoxdur. Çünki 10-12 yaşlı uşaqlar kamera qarşısında əcaib hərəkətlər edib, jarqonla danışırlar, meyxana oxuyurlar, söyüşlə videolar çəkirlər. Tutaq ki, onların bir-ikisinin valideyni durumdan xəbərsizdir. Axı "TikTok" hər kəsə açıq platformadır. Onların ətrafında kimsə görüb tanımalıdır, valideynə xəbər etməlidir ki, övladın bu işlərlə məşğuldur. Bilirlər, lakin etinasız yanaşırlar. Mətbuatda dərc olunsun, televiziyada göstərilsin ki, İtaliyada belə bir hadisə baş verib, deyəcəklər ki, təsadüfdür. Təsadüflər də zərurətdən doğur. Biz hər şeyə təsadüf deyərək məsuliyyətdən yaxamızı kənara çəkirik. Məsələn, selfi yeni dəbə düşəndə nə qədər insanın həyatını itirdiyinin şahidi olduq. İndi körpə uşaqlara smartfon telefon alıb, sərbəst internet istifadəsinə icazə vermək nə dərəcədə doğrudur? Bunun özü mübahisəli mövzudur. Düzdür, onlayn təhsillə bağlı uşaqların hamısında smartfon telefon var. Amma nəzarət olunmalıdır. Odur ki, valideynlərin üzərinə böyük məsuliyyət düşür. Övladımızı bizdən başqa kimsə qoruya bilməz. Valideynin öz övladına qarşı maksimum diqqətli olmasından başqa çarəsi yoxdur. Qloballaşan dünyada informasiya texnologiyalarının əjdahaya çevrildiyi bir zamanda ana, ata hər cür tələyə qarşı gözü açıq olmalıdırlar".

**Samirə Ərəbova**



## "Atama qardaşının dəfnində iştiraka imkan vermirlər"

### Nazilə Səfərli sosial şəbəkədə etiraz paylaşıb

**Tanınmış aparıcı, şairə Nazilə Səfərliyə ağır itki üz verib. Onun əmisi Binəli Məmmədov Rusiyada dünyasını dəyişib.**

**"Şərq" xəbər verir ki, aparıcı bu barədə paylaşım edərək, əmisinin dəfninə atasının getmək istədiyini, amma imkan verilmədiyini söyləyib:** "Atamın qardaşının dəfnində iştirak etməsi onun haqqıdır. Dəfn mərasimi Gürcüstanda baş tucağı üçün ölkədən çıxa bilmir. Anlayıram, dünya pandemiya ilə savaşır. Yenə tək problemimiz COVİD deyil. Hər yerə baş vurmuşuq. XİN, Baş qərargah, Gürcüstan səfirliyi hamı bir-birinə ötürür. İmzalayın, xahiş edirəm bizi incitməyin. Öz dərdimiz özümüzə bəsdir. Bu həssas dönəmdə ailəmə köməklik göstərməyinizi istəyirəm. Borçalı əsilli olmaq bizim günahımız deyil".

**Samirə**

# Azercell-in rəqəmsal məhsulları IBA Mobile tətbiqində!

### "Azercell Telekom" MMC və Azərbaycan Beynəlxalq Bankı yeni əməkdaşlığa imza atır

**İndi Azercell-in rəqəmsal həlləri IBA Mobile tətbiqində! Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC Azərbaycan Beynəlxalq Bankı ilə birgə əməkdaşlıqda daha bir yeniliyə imza atır. Artıq Azərbaycan Beynəlxalq Bankının IBA Mobile mobil əlavəsinin istifadəçiləri tətbiq vasitəsilə Azercell-in NNTV, Bookmate, BluTV və ivi xidmətlərini aktivləşdirmək imkanı əldə edir.**

Xidmətlərə qoşulmaq qaydası çox sadədir. İstifadə rahatlığı və funksionallığı ilə seçilən IBA Mobile-də "Digər" bölümünü seçdikdən sonra "Partnyorlar" bölümünə keçid edib "Azercell tətbiqləri" sırasında sevdiyiniz xidmətə abunə ola bilərsiniz. 4 milyondan çox dünya və Azərbaycan ədəbiyyatı əsərlərini elektron və audio formatda özündə cəmləşdirən Bookmate tətbiqini lider mobil operator eksklüziv şərtlərlə təqdim edir. Yalnız Azercell abunəçiləri xidmətə 50% endirimlə- ayda cəmi 3.50 AZN ödəyərək qoşula bilərlər. Bookmate mütaliəsevərlərə məkandan və istifadə olunan cihazdan asılı olmayaraq Azərbaycan, türk, ingilis, rus və digər dillərdə zəngin elektron kitabxanadan yararlanmaq, sevdiyi




kitabları sosial şəbəkələrdə dostları ilə paylaşmaq, eləcə də tətbiqi yeni kitablarla daha da zənginləşdirmək imkanı verir. Xidmətdən günlük istifadə haqqı 0.19 AZN təşkil edir. Azərbaycanda yalnız Azercell abunəçilərinin yararlana biləcəyi NNTV xidməti 200-dən çox yerli və xarici televiziya kanallarını internet üzərindən onlayn surətdə və yüksək keyfiyyətdə izləmə imkanı verir. Xidmətdən ayda 4 AZN və ya gündə 0.20 AZN ödəməklə yararlanmaq mümkündür. Abunəçilərinin rahatlığını hər zaman düşünən Azercell, bu xidmət üçün xüsusi paketlər də təqdim edir. Ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/digital-solutions/nntv.html səhifəsinə keçid etməyiniz xahiş edilir. Azercell son illər ərzində dünyada sürətlə populyarlıq qazanan türk kino və seriallarını, eləcə də türk TV kanallarını BluTV ilə müstəsna tərəfdaşlıq çərçivəsində endirimli qiymətlərlə təqdim edir. İzləmə rekordları ilə seçilən türk kinematoqrafiyasını 4K keyfiyyətdə və reklamsız ayda 4.99 AZN deyil, cəmi 3 AZN-ə smartfonlarınızda və ya Smart TV-də izləyin! Günlük abunə haqqı 0.25 AZN təşkil edir.

Kinoteatrların bağlı olduğu bir zamanda Azercell kino pərəstişkarlarını ivi xidməti ilə sevindirir. Dünyanın ən populyar və eksklüziv filmlərini Smart TV də daxil olmaqla, eyni anda 5 cihazda izləmək imkanı verən ivi xidmətindən ayda cəmi 5.99 AZN-ə və ya gündə 0.40 AZN-ə yararlanmaq mümkündür. Ən yeni filmləri ivi ilə yüksək keyfiyyətdə və reklamsız izləmək fürsətini qaçırmayın! Azercell-in Big Data və Təhlillər departamentinin direktoru, İstehlakçı Seqment Biznes strukturunun rəhbəri Azad Hüseynov bildirdi: "Artıq 2 ildir ki, rəqəmsallaşma siyasətimizi uğurla həyata keçiririk. Özünəxidmət məhsullarının xüsusilə aktual olduğu bir zamanda abunəçilərimizin həyatını innovativ biznes həlləri ilə asanlaşdırmağa çalışırıq. Azərbaycan Beynəlxalq Bankı ilə birgə bu istiqamətdə daha bir önəmli addım atdığımızı düşünür və bu əməkdaşlığın müştərilərimiz üçün faydalı olacağına inanıram". Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti sədrinin müavini, Bankın Baş Transformasiya İnzibatçısı Taleh Tahirli mobil xidmətlərin bu şəkildə uğurlu inteqrasiyasının ölkəmizdə innovasiya ekosisteminin inkişafına xidmət etdiyini qeyd etdi: "Hər biri öz sahəsində lider olan Azərbaycan Beynəlxalq Bankı və Azercell şirkətinin bu istiqamətdə öz imkanlarını birləşdirməsi faydalı müştəri təcrübəsi formalaşdıracaq və yeni innovativ həllərin ortaya çıxmasına zəmin yaradacaq". Azercell-in rəqəmsal məhsullar portfeli ilə tanış olmaq üçün https://www.azercell.com/az/personal/digital-solutions.html səhifəsinə keçid etməyiniz xahiş olunur.

## "Nar" onlayn təhsil alanlar üçün yeni internet paketini təqdim edib




**"Nar" pandemiya dövründə onlayn formatda təhsil alan şagird və tələbələrin, eləcə də müəllimlərin dərslərə istənilən məkandan rahatlıqla qoşula bilməsi üçün "TƏHSİL+" internet paketini təqdim edib.**

Yeni internet paketi ilə "Microsoft Teams", həmçinin də "Zoom" tətbiqlərindən heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən istifadə etmək mümkündür.

Bu paket çərçivəsində abunəçilərə hər iki tətbiqdən istifadə üçün sürət limiti olmayan 50GB təqdim olunur. Qeyd edək ki, "TƏHSİL+" internet paketinin üstünlüklərindən biri də "hotspot" funksiyası vasitəsilə internetin paylaşıla bilən olmasıdır. Paketin qiyməti 10 AZN təşkil edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya "777" nömrəsinə "T+" açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər.

"Nar" uzunmüddətli KSM strategiyası çərçivəsində ölkədə təhsilin inkişafını dəstəkləyən bir çox sosial layihələr həyata keçirir. Təqdim olunan yeni internet paketi də ictimai izolyasiya dövründə təhsil prosesində iştirak edən şagird və tələbələrə, eləcə də müəllimlərə dəstək məqsədilə yaradılıb. "TƏHSİL+" internet paketi haqqında daha ətraflı məlumatla şirkətin rəsmi saytından tanış olmaq olar.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 188





## Əvvəllər satıcı idi

### İndi öz paltar markasını yaradır

**"Yuventus"un hücumçusu Kristian Ronaldonun nişanlısı Corcina Rodriges öz geyim markasını yaratmağı planlaşdırır.**

Bu haqda ispan model özü İnstaqramda məlumat yayıb. O, idman kostyumunda bir neçə fotoşəkil paylaşaraq "Tezliklə. OM by G" sözlərini yazıb.

*Qeyd edək ki, Corcina moda sənayesinə yaxşı bələddir. O, bir vaxtlar Madriddəki "Gucci" mağazasında satıcı işləyib, Ronaldo ilə də məhz orada tanış olub. Xatırladaq ki, portuqaliyalı futbolçu özü isə CR7 kişi geyimləri markasının sahibidir.*

## 90 yaşında ata oldu

### Uşaq süni mayalanma yolu ilə dünyaya gəlib



**Rusiyalı aktyor İvan Krasko 90 yaşında ata olub. Axşam.az xəbər verir ki, aktyorun altıncı övladı dünyaya gəlib.**

Bu barədə İ.Krasko Birinci kanalın "Əslində" adlı tok-şousunda məlumat verib.

Qızı doğulan aktyor "**Sevgi varsa, uşağın olması üçün heç bir əngəl ola bilməz"** deyib. O bildirib ki, uşaq süni mayalanma yolu ilə dünyaya gəlib.

*Qeyd edək ki, İvan 29 yaşlı Yuliya Kiçemasova ilə sevgilidir. Cütlük artıq nikah masasına oturmağı planlaşdırır.*

## Tanınmaq istəmədi

### Aktrisa geyimi ilə diqqət çəkib





**Ötən gün hollivud ulduzu Şarliz Teron kamerlara tuş gəlib.**

Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, "Beverly Hills"dəki alış-veriş mərkəzlərindən birinə yollanan aktrisa geyimi ilə xeyli diqqət çəkib. Tamamilə qapalı geyinən, hətta üzünü də filtrli maskası ilə gizlətməyə çalışan Teron tanınmamaq üçün əlindən gələni edib. O, bu cəhdlərinə baxmayaraq yenə də kameraların obyektivindən yaxa qurtara bilməyib. 45 yaşlı aktrisanın çox alış-veriş etməsi də gözlərdən yayınmayıb. Teron aldıqlarını güclə avtomobilinin yük yerinə yerləşdirməyə çalışıb. Aktrisanın koronavirus səbəbilə çölə çıxa bilmədiyi üçün bu qədər çox bazarlıq etdiyi bildirilib.

## Hər qadına 500 min dollar ödəyəcək



**Hollivud prodüseri Harvi Vaynşteyn tərəfindən təcavüz və cinsi zorakılığa məruz qalan 50 qadın ümumilikdə 17,1 milyon dollar alacaq.**

Axşam.az xəbər verir ki, bu barədə "Variety" nəşri məlumat yayıb. ABŞ-ın müflisləşmə işləri üzrə hakimi Meri Uolrat prodüserin "Weinstein Company" şirkətinin ləğvi planını təsdiqləyib. Hakimin qərarına əsasən, şirkətin müflisləşmə proseduru çərçivəsində 17,1 milyon dollar məbləğində fond yaradılacaq. Vaynşteynin cinsi zorakılığına məruz qalan 50 qadın isə 500 min dollar məbləğində kompensasiya alacaq.

*Qeyd edək ki, 23 il müddətində azadlıqdan məhrum edilən Harvinin ünvanına ilk ittihamlar 2017-ci ilin sonunda irəli sürülüb. Son 30 il ərzində onun 80-dən çox xanıma təcavüz etdiyi deyilir. Onlar arasında Ancelina Coli, Qvinet Peltrou, Salma Hayek kimi məşhur aktrisalar da var.*



# Dünyanın ilginc mədəniyyətləri

### Kişilər 27, qadınlar isə 25 yaşından tez evlənə bilməzlər







**Dünyada onlarca, yüzlərlə mədəniyyət var. Coğrafiya və insan həyatı bu ənənələri formalaşdırır. Həmin ənənələrdən bəzisini təqdim edirik.**

Məsələn, **Rusiyada** kimsə sizə araq təklif edirsə, ondan imtina etmək ayıb sayılır. Həmin arağın hamısını içib bitirməlisən. **Şimali Koreya** qapalı bir mədəniyyətin olması ilə məşhurdur. Burada kişilər 27, qadınlar 25 yaşından tez evlənə bilməzlər. Çünki bu, qanunla qadağandır. Əvvəlcə dövlət qarşısında vəzifələrini yerinə yetirməlisən, sonra isə evlənə bilərsən. İspanların ən məşhur bilinən ənənəsi siestadır. Günortadan sonra bir az yatan **ispanlar** bu saatlarda işləmirlər. Budizmdən isə söz düşəndə ağla gələn ilk şey narıncı paltar və hündür saçlardır. Bəs buddistlər niyə saçlarını qırxırlar? **Buddizmdə** saç kəsmək dünyəvi istəklərdən qurtulmaq deməkdir. **Mavritaniyada** evlənmək istəyən qadınlar mütləq 60 ilə 100 kiloqram arasında olmalıdır. Kilo almayanı isə ailəsi mütləq cəzalandırır. **Yaponlar** da tez-tez bizim kimi evə girəndə ayaqqabılarını çıxarırlar. Düzdür, biz də bu gigiyenadan qaynaqlanırıq, ancaq onlarkı isə imandandır. Ev sahibinə hörmət əlaməti olaraq ayaqqabılar mütləq çıxarılır. Burada birinin evinə ayaqyalın getmək olmaz, çünki bu, Yaponiyada hörmətsizlik əlamətidir. **Afrikada Masai** qəbiləsi maraqlı bir adətə sahibdir. Onlar salamlaşarkən biri-birlərinə tüpürürlər.

**Aynurə Pənahqızı**





## Milyon ildən çox yaşı var

### Bu ağac qalın bir vulkanik kül təbəqəsi altından tapılıb

**Egey dənizinin şimal-şərqində yerləşən Lesbos adasında yunan alimləri milyonlarla il əvvəl daşlaşmış və torpaq altında qalmış üç ayrı ağac tapıblar.**

"Şərq" "Reuters" xəbər agentliyinə istinadən xəbər verir ki, mütəxəssislər əldə etdikləri bu ağac qalıqlarının çox nadir olduğunu bildirirlər. Hətta onun yaşının 20 milyon ildən çox olduğunu iddia edirlər. Ağaclardan birinin boyu təxminən 19 metrdir. O, demək olar ki, qalın bir vulkanik kül təbəqəsi altından tapılıb. Xatırladıq ki, həmin ərazilərdə Ayvalık və Edremit vulkanları yerləşir. Dünyada məşhur olan həmin bölgədə o cümlədən meyvə ağacları, yarpaqları və heyvan sümükləri də aşkarlanıb. Yeni tapıntılar adadakı Daşlaşmış Meşə Parkına və Muzeyinə aparılıb. Professor Nikos Zouros 1995-ci ildən bəri davam edən qazıntılar zamanı ilk dəfə yaxşı vəziyyətdə bir ağac tapdıqlarını söyləyib: "Bənzərsiz bir ixtiradır. Ağacın tarixinin və təfərrüatlarının araşdırılması üçün o çox yaxşı vəziyyətdədir".

*Qeyd edək ki, Lesbosdakı bu, meşə qalıqları 15 min hektar ərazini əhatə edir. Vulkanın püskürməsi nəticəsində lava ilə daşlaşmış meşə YUNESKO-nun himayəsindədir. Daşlaşmış Meşə Parkı və Muzeyi 1994-cü ildə adanın qərb ucundakı Sığri Köyündə qurulub və Lesbos adasından təxminən 92 kilometr məsafədədir. Andissa və Eressos kəndlərində də kök, meyvə, yarpaq və toxum qalıqları tapılıb. Qalıqlar arasında təxminən 40 fərqli bitki növü təsbit edilib.*

**Aynurə Pənahqızı**